# Həzrət Fatimədən (ə) hədislər

“Hər kim öz xalis (səmimi) ibadətini Allaha ünvanlasa, Allah da özünün ən yaxşı məsləhətini ona endirər” (yəni Allah məsləhət bildiyi ən xeyirli neməti ona bəxş edər).

“Süfrənin 12 xüsusiyyəti var ki, hər bir müsəlman bunları bilməlidir. Bu xüsusiyyətlərin dördü fərz (vacib), dördü sünnətdir, dördü isə ədəb-ərkandandır. Fərz olan xüsusiyyətlər bunlardır: mərifət (yəni ruzini verən Allahı tanımaq), razılıq, Allahın adını çəkmək (“bismillah” demək) və şükr. Sünnət olan dörd xüsusiyyət budur: yeməkdən qabaq dəstəmaz almaq, oturmuş halda yemək, sağ tərəfi üstə (yəni sağ tərəfə dayaqlanıb) oturmaq və üç barmaqla yemək. Ədəb-ərkandan olan xüsusiyyətlər isə bunlardır: öz qabağında olan qidanı götürüb yemək, loxmaları kiçik etmək, yeməyi yaxşı çeynəmək və süfrə arxasında başqalarının üzünə az baxmaq”.

“Peyğəmbər buyurub: “Cümə günündə elə bir saat var ki, müsəlman həmin saatda Allahdan nə isə xeyir-bərəkət istəsə, ona verər”. Fatimə soruşdu ki, bu hansı saatdır?
Peyğəmbər cavab verdi: “Qürub vaxtı Günəşin yarısı üfüqün arxasında itəndə”.

“Sizin ən yaxşılarınız – insanlarla ən mülayim, öz həyat yoldaşı ilə ən mehriban rəftar edəninizdir”.

“Əgər oruc insanın dlini, qulağını, gözünü və sair əzalarını günahdan çəkindirmirsə, belə orucun insana nə faydası var?”.

“Sizin dünyanızdan yalnız üç şeyi xoşlayıram: Allahın Kitabını oxumağı,
Allah Rəsulunun çöhrəsinə baxmağı və Allah yolunda ehtiyaclılara yardım göstərməyi”.

Fatimə ərə gedərkən atasına demişdi: “Ey Allahın Rəsulu! Xalqın qadınları pulun xatirinə ərə gedirlər. Bəs, mənimlə onların arasında nə fərq olar? İstəyirəm Allaha dua edəsən ki, mənim mehriyyəm Sənin ümmətinin günahkarlarına şəfaət etmək ixtiyarı olsun”.

“Allah sizin şirkdən pak olmağınız üçün imanı, təkəbbürdən təmizlənməyiniz üçün namazı, ruhunuzun saflaşmasından və ruzinizin artmasından ötrü zəkatı, ixlasda möhkəm olmağınız üçün orucu, dininizin möhkəmliyindən ötrü həcci, ürəklərinizin mehriban olması üçün ədaləti, ümmətin nizam-intizama nail olması üçün bizə (yəni Əhli-beytə) tabe olmağı, təfriqədən amanda qalmağınız üçün bizim imamətimizə inanmağı, İslamın izzət qazanmasından ötrü cihadı, savab qazanmaq vəsiləsi kimi səbri, camaatın islahı üçün əmr bil-mərufu (yaxşı işlərə çağırmağı), Allahın qəzəbindən xilas olmaq üçün valideynə yaxşılıq etməyi, sayınızın artması üçün sileyi-rəhimi (qohumlarla mehriban olmağı), canın qorunmasından ötrü qisası, bağışlanmaq vasitəsi kimi əhdə (nəzrə) vəfa etməyi, qəhətliyə düçar olmamaq üçün çəkini düz çəkməyi, alçaqlığa sürüklənməmək üçün şərb içməkdən çəkinməyi, Allahın lənəti qarşısında müdafiə vasitəsi kimi iftiradan uzaq olmağı, iffəti qorumaq üçün oğurluqdan çəkinməyi, Allahın rübubiyyətinə (rəbbliyinə) tam səmimiyyətlə bağlanmağınız üçün şirki haram saymağı vacib buyurdu”.

Hədislər “Nəhcül-həyat (Fatimənin kəlamlarının ensiklopediyası)” kitabındandır.

# HƏZRƏT ZEYNƏBİN (Ə) HƏYATI VƏ ŞƏXSİYYƏTİ



Həzrət Zeynəbin (ə) dünyaya gəlişi ilə bağlı tarixçilər arasında müxtəlif fikirlər var.

Onun dünyaya gəlişi haqqında iki versiyanı diqqətinizə çatdırırıq: 1) Hicri-qəməri 5-ci ilin cəmadiüləvvəl ayının 5-i ("Xəsais əz-zeynəbiyyə", Seyid Nurəddin Cəzairi); 2) Bəzilərinə görə isə o həzrətin doğum günü hicri-qəməri 6-cı ilinə təsadüf etmişdir ("Zeynəb, banuyi-qəhrəmani-Kərbəla", Bint əş-Şati", səh. 16). Əlbəttə, başqa nəzəriyyələr də mövcuddur.

Onun anası həzrət Fatimə (ə), atası isə Həzrət Əlidir (ə). Bu böyük xanım Mədinə şəhərində dünyaya göz açmışdır. O, anası ilə təqribən beş-altı il müddətində yaşamışdı. Hicri-qəməri 11-ci ilin cəmadiüləvvəl ayının 3-də isə anasını itirmişdir ("Müntəha əl-əmal", Şeyx Abbas Qumi; "Zeynəb bint əl-İmam əl-Əmirəlmöminin", Əli Məhəmməd Əli Dəxil, səh. 10; "Bihar əl-ənvar", Məhəmməd Baqir Məclisi, c. 43, səh. 215).

Həzrət Zeynəbin (ə) həyat yoldaşı əmisi oğlu Abdullah ibn Cəfər olmuşdur. O, islamın görkəmli şəxsiyyətlərindən və səxavəti dillər əzbəri olan insanlardandır (Zendeganiyi-həzrət Zeynəb (ə) və doxtərani-an həzrət", Seyid Haşim Rəsul Məhəllati, səh. 273).

Həzrət Zeynəbin çoxlu ləqəb və künyələri olmuşdur. O həzrətin (ə) ləqəblərindən biri rəvayətlərdə "Əqilə" və ya Əqileyi-Bəni-Haşim"olaraq keçmişdir. "Əqilə" dəyərli və hörmətli qadın deməkdir (Yenə orada, səh. 270). O həzrətin (ə) digər ləqəbləri isə Siddiqeyi-Kubra, Arifə, Alimə, Fazilə, Kamilə və Abideyi-Ali-Əli olmuşdur ("Zeynəb bint əl-İmam əl-Əmirəlmöminin", Əli Məhəmməd Əli Dəxil, səh. 11). Həzrət Zeynəb (ə) Əmirəlmöminin (ə) Mədinədə olduğu müddətdə həyat yoldaşı Abdullah ibn Cəfərlə birgə Mədinədə yaşayırdı. Həzrət Əli İslam hökumətinin paytaxtını Kufəyə keçirdikdən sonra onlar da Kufəyə köçdülər. Həzrət Zeynəb Kufədə qadınların təlim-tərbiyəsi ilə məşğul olurdu (Zendeganiyi-həzrət Zeynəb (ə) və doxtərani-an həzrət", Seyid Haşim Rəsul Məhəllati, səh. 285). Həzrət Əlinin şəhadətindən sonra isə yenidən Mədinəyə qayıtdılar (Həzrət Əli hicri-qəməri 40-cı ildə Kufədə şəhid oldu. Demək, həzrət Zeynəbin (ə) bu zaman 35 yaşı var idi. Atasının şəhadətindən sonra təqribən 10 il qardaşı İmam Həsənlə (ə) birlikdə yaşadı. Hicri-qəməri 50-ci ildə İmam Həsən şəhid oldu ("Əl-İrşad", Şeyx Möfid, səh. 192).

İmam Həsənin (ə) şəhadətindən sonra 10 il də digər qardaşı İmam Hüseynin (ə) imamət dönəmində yaşadı. Həzrət Zeynəbin (ə) qardaşı İmam Hüseynin (ə) imamlığı dönəmindəki həyatı ömrünün ən ağrılı-acılı dövrüdür. Həzrət Zeynəb (ə) həyatı boyu çoxlu müsibətlərlə qarşılaşmışdır. Amma onun Kərbəlada olması, o sarsıdıcı hadisələrə şahid olmaq, qardaşını, övladlarını, qardaşı uşaqlarını əldən vermək bütün ağrı-acılardan daha ağırdır. Çünki bir gündə bütün əzizlərini, ən əsası isə qardaşı İmam Hüseyni (ə) əldən verdi. Ürəkyaxan Kərbəla faciəsi zamanı həzrət Zeynəbin (ə) 55 yaşı var idi və hicri-qəməri 62-ci ildə rəcəb ayının 14-də bazar günü gecə dünyasını dəyişdi ("Zeynəb, banuyi-qəhrəmani-Kərbəla", Bint əş-Şati", səh. 172).

Əlbəttə, o həzrətin (ə) dünyasını dəyişdiyi ayla bağlı başqa fikirlər də var. Lakin məşhur versiya hicri 62-ci ilin rəcəb ayının 14-dür. Seyid Haşim Rəsul

Məhəllati yazır: "Məşhur versiyaya görə, o həzrətin (ə) vəfatı hicri 62-ci ilin rəcəb ayının 14-də baş vermişdir. Yəni, Kərbəla hadisəsindən təqribən bir il yarım sonra" (Zendeganiyi-həzrət Zeynəb (ə) və doxtərani-an həzrət", Seyid Haşim Rəsul Məhəllati, səh. 285). Fikir ayrılığı isə o həzrətin vəfat etdiyi ayla bağlıdır. Bütün tarixçilər vəfat ilinin hicri 62-ci olması haqqında yekdil fikirdədirlər. Deməк, bu şərafətli xanım Kərbəla faciəsindən təqribən bir il yarım sonra dünyasını dəyişmişdir.

O həzrətin fəzilətləri

1. O həzrətin (ə) səbri: Şəhid Mütəhhəri bu haqda yazır: "İmam Hüseyn (ə) hərəkatında hamıdan çox dözüm və səbr dərsi verən bacısı Zeynəb (ə) olmuşdur" ("Həmaseyi-Hoseyni", c. 2, səh. 225). "Nasix ət-təvarix"də oxuyuruq: "Şübhəsiz, yaradılışdan üzü bəri peyğəmbərlər və övliyaların qadınlarından heç birində bu qədər dözüm və səbrə rast gəlməmişik" ("Nasix ət-təvarix", Xan Sepehr Abbasqulu, səh. 73).

2. O həzrətin (ə) ibadəti: "Zeynəbi-Kubra bütün əsirlik müddətində gecələri namaz qılır, ibadətlə keçirirdi" ('Müzzəmmil" surəsinin təfsiri, Şəhid Mürtəza Mütəhhəri, səh. 68). "Rəyahin əş-şəriə"kitabında oxuyuruq: "Həzrət Zeynəbin (ə) gecə ibadətləri həyatı boyunca, hətta məhərrəm ayının 11-ci gecəsi də tərk edilmədi" ("Rəyahin əş-şəriə", Zəbihullah Məhəllati, c. 3, səh. 61).

3. O həzrətin natiqliyi: Həzrət Zeynəbin (ə) Kufə və Şamda Yezid və yezidi tərəfdarlarını rüsvay edən qızğın və gözəl nitqi ən yüksək fəsahət və bəlağət nümunəsi idi. Şəhid Mütəhhəri bu haqda yazır: "Həzrət Zeynəbin (ə) Yezidin məclisindəki çıxışı dünyanın misilsiz çıxışlarındandır" ("Fəlsəfeyi-əxlaq", Mürtəza Mütəhhəri, səh. 59.).

4. O həzrətin biliyi: Həzrət Zeynəb (ə) Kufə bazarında alovlu və məzmunlu nitq söylədikdə İmam Səccad (ə) həzrətin (ə) elmi səviyyəsini təsdiq edərək buyurdu: "Şükürlər olsun ki, sən müəllimsiz alimsən" ("Rəyahin əş-şəriə", Zəbihullah Məhəllati, c. 3, səh. 61). İmam Səccadın (ə) bu kəlamı o həzrətin (ə) ilahi biliyindən xəbər verir.

5. O həzrətin nəcibliyi: O həzrətin nəcibliyini göstərmək üçün bir məsələni xatırlatmaq kifayətdir. Aşura günü günorta onun iki oğlu şəhid olanda ayağını xeymədən bayıra atmadı".

6. Onun məsumluğu: "Zeynəb bint əl-İmam Əmirəlmöminin" o həzrətin (ə) məsum olduğunu qeyd edir və yazır: "Onun məsumluğu dinin zəruriyyatından olmasa da o bu məqama yüksəlmişdi"("Zeynəb bint əl-İmam əl-Əmirəlmöminin", Əli Məhəmməd Əli Dəxil, səh. 10). Bu müəllif bir neçə sübut göstərərək həzrət Zeynəbin (ə) məsum olduğunu isbatlayır.

Əlqərəz qeyd etmək lazımdır ki, həzrət Zeynəbin (ə) batini və mənəvi məqamlarını heç kim yazıb qurtara bilməz ("Nasix ət-təvarix", Xan Sepehr Abbasqulu, səh. 73).

İbn Əsir yazır: "Həzrət Zeynəb xalq arasında fəsahət, bəlağət, zöhd, ibadət, fəzilət, şücaət və səxavətdə atası Əliyə(ə) və anası Fatiməyə (ə) ən çox oxşayan idi" ("Zeynəbi-Qəhrəman", Əhməd Sadiqi Ərdestani, səh. 392).

Tərcümə edən: Maqsud Sayıl

# FƏSAD NƏDİR?

Sadə dillə desək, fəsad, günah və fitnə, səlah isə savab və xeyirdir

Əvvəlcə onu qeyd edək ki, «fəsad» «səlah»ın antonimidir. Dini mənbələrə istinad etsək, görərik ki, fəsad əşyanın istər az, istərsə də çox miqdar tarazlıq halından çıxmasıdır. Səlah isə, onun ziddinə olaraq, tarazlıq halətidir. Sadə dillə desək, fəsad, günah və fitnə, səlah isə savab və xeyirdir. Bütün fərdi və ictimai fəaliyyətlərdəki ifratçılıq və təfritçilik fəsad hesab edilir. Qurani-kərimin müxtəlif ayələrində bu mövzuya toxunulur:

«Yer üzündə fəsad törədər və islah olmazlar». («Şüəra» surəsi, ayə 152.)

«Allah-təala fəsad törədənləri, saleh əməl sahiblərindən fərqləndirir». («Bəqərə» surəsi, ayə 220.)

«İslah ol və fəsad törədənlərin ardınca getmə». («Əraf» surəsi, ayə 142.)

«İman gətirib saleh iş görənləri, yer üzündə fəsad törədənlərlə eyni tutmarıq». («Sad» surəsi, ayə 27.)

Müxtəlif ayələrdə fəsad törətmək Allah və peyğəmbərlərlə vuruşmaq, insanın qətli hər cür azğınlığa aid edilir.

Yer üzündə fəsad törədənlər sırasında ilkin adı çəkilənlərdən biri Firondur. Artıq həlak olacağını anlayan Firon iman gətirdiyini bildirəndə, ona buyurulur: «İndimi? Halbuki, əvvəlcə Allaha qarşı çıxmış və fəsad törədənlərdən olmuşdun». («Yunis» surəsi, ayə 91.)

Bəzən oğurluq fəsad hesab edilir. Yusif peyğəmbərin qardaşları oğurluqda ittiham olunduqları zaman deyirlər: «Biz, Misir torpağına fəsad salmaq üçün gəlməmişik». («Yusif» surəsi, ayə 73.)

# NAMAZ (NƏHCÜL-BƏLAĞƏDƏ)

## İKİNCİ HİSSƏ

*Mərhəmətli, rəhmli Allahın adı ilə!*

Qurani-Kərimdə "...Namaz qıl. Həqiqətən, namaz (insanı) çirkin və pis əməllərdən çəkindirər..." (1) ayəsi başqa bir mənanı da çatdırmaqdadır. Belə ki, namaz insanı pis əməllərdən çəkindirdiyi kimi pis əməllər də insanı nam-azdan yayındırır. Yəni ortada qarşılıqlı təsiredicilik var. İnsan elə bir məqama nail ola bilər ki, pis əməllərə meyli olmaz və nəticədə namazının sırf Allah üçün olmasına əmin olar; "De: "Mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür!" (2)




Peyğəmbər (s) buyurub: "Namaz mənim göz yaşlarımdır" 3) (قرة عيني الصلاة) "Qurrətu əyni" göz nuru mənasını daşımır. İnsan uzun müddətdən sonra öz əzizini görərkən sevincdən gözləri yaşarır. Bu göz yaşları kədərdən yaranan göz yaşlarından fərqlidir. Qəm-qüssəli göz yaşları isti olar. Lakin sevincdən yaşaran göz yaşları sərin olar. Hədisin mənası belədir ki, namazı gördükdə gözlərimə nur gəlir. Gözlərim aydın olur. Heç bir ləzzət namazdakı ləzzətin yerini verə bilməz.

Namaz barədə müxtəlif təfərrüatları eyni adlı məqalənin birinci hissəsində qeyd etmişdik. Bu məqalədə (ikinci hissədə) də həzrət Əlinin (ə) çox dəyərli Nəhcül-Bəlağə əsərindən istiqamətverici və nurani kəlamlarını oxucuların nəzərinə çatdırırıq:

**1-Namaz qəbul olarsa digər əməllər də qəbul olar:**

Namaz qəbul olarsa, digər əməllər də qəbul olar. Əks təqdirdə digər əməllərin faydası olmayacaq. Ona görə də Qurani-Kərimdə və hədislərdə, bu ibadətə yetərincə diqqətli olmağımıza tövsiyə olmuşdur. Həzrət Əli (ə.s) buyurur: "...və bil ki, əməllərinin hər bir şeyi namaza bağlıdır..." وَ اعْلَمْ أَنَّ كُلَّ 4) (شَيْءٍ مِنْ عَمَلِكَ تَبَعٌ لِصَلَاتِكَ) Həzrət bayramların birində (orucluq bayramında) buyurub: "Bu gün o adamın bayramıdır ki, Allah onun orucunu qəbul edib və namazını mükafatlandırıb..." (5)

**2- Namaz günahları yuyur:**

Namaz günahları yarpağın (ağacdan) tökülməsi kimi tökür. Allahın Peyğəmbəri (s) namazı insanın qapısının ağzında olan və insanın gün ərzində beş dəfə içində çimdiyi su çeşməsinə bənzədib. Belə olan halda, (məlumdur ki,) həmin şəxsdə heç bir çirk qalmayacaqdır. Həzrət "Qasiə" xütbəsində b uyurub: "...Allah mömin bəndələrinin əl, ayaq və digər üzvlərinin (günah və itaətsizlikdən) dinc qalması, gözlərini yerə dikmələri, canlarının təvazökarlığı, qəlblərinin xarlığı, təkəbbür və lovğalığı onlardan uzaqlaşdırmaq üçün onları namazlar, zəkatlar və vacib günlərdə oruc tutmağa çalışmaq vasitəsi ilə fitnə-fəsad, zülm və təkəbbürlülükdən qoruyur..." (7)

**3- Namaz insanın azadlığına səbəb olur:**

"Namaz günahları...ilmələrin (heyvanların boyunlarından) açılması kimi açıb boşaldır" 8) (تُطَلِّقُهَا إِطْلَاقَ الرِّبَقِ)

**4- Namaz Allaha yaxın olmaq üçün ən yaxşı vasitədir:**

"Namaz hər bir pərhizkarın (Allahın mərhəmətinə) yaxınlaşma vasitəsidir" (9) الصَّلَاةُ قُرْبَانُ كُلِّ تَقِيٍّ Allaha namazın vasitəsilə yaxınlaşın. Çünki, mərifətdən sonra ən yaxşı vasitə namazdır. Bu üzdən Allah-taala həzrət İsaya (ə) diri olduqca namaz qılıb zəkat verməyi tövsiyə buyurdu. (10)

**5- Ailədə namaz:**

"...Allahın Peyğəmbəri (s) Cənnətlə müjdələnməsinə baxmayaraq, özünü namaz üçün çətinliyə salırdı (çox namaz qılırdı). Səbəb eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allahın ("Taha" surəsinin 132-ci ayəsindəki) bu buyuruğudur ki: "Əhlinə (əhli-beyt və ümmətinə) namaz qılmağı əmr et və özün də onun yerinə yetirilməsində səbirli ol." Buna görə də o Həzrət həm öz əhlinə namazı əmr edirdi, həm də özünü onun çətinliklərinə səbrli olmağa məcbur edirdi..." (11)

"Ey camaat! Qadınların iman, irs və s... dən payları azdır. İmanlarındakı çatışmazlıq heyzli günlərində namaz qılmayıb, oruc tutmamalarına görədir..." (12)

Həzrət Əli (ə) bu xütbədə qadınlara aybaşı (həddi-büluğa çatmış qızlarda, həmçinin qadınlarda vaxtaşırı (hər ay) uşaqlıqdan qan ifrazı, adət) vaxtı namazın vacib olmadığını bildirib.

**6- Namazdan sonra tövbə qəbul olar:**

"O günah ki, ondan sonra iki rəkət namaz qılmaq və Allahdan onu (o günahı) bağışlamasını istəmək miqdarında fürsət tapdımsa (qəflətən ölmədim), o günah məni kədərləndirmədi. (13) Çünki insan günah etdikdən sonra pak, düz və doğru niyyətlə Allahın bağışlamasına ümidvar olsa, əməlindən peşman olub onu bir daha etməmək qərarına gəlsə və günahın kəffarəsi olan namaza durub Allahdan bağışlanmasını istəsə, həmin günaha görə cəzalandırılmaz. Buna görə də həmin günah onu kədərləndirməz.

Qeyd etmək lazımdır ki, İmam (ə) bu kəlamı başqasına öyrətmək, namazın günahın kəffarəsi olmasını, insanın günahdan uzaq olmasının zəruriliyini və tövbədən qabaq baş verə bilən qəfil ölümdən qorxmasını başa salır, həzrətin özü isə hər bir günahdan pak və uzaqdır.

Qeyd etmək lazımdır ki, yuxarıdakı xütbədə namazın daha başqa bir müsbət təsiri izah olunmaqdadır. Belə ki, namaz iztirablı insanların təlaş, təşviş, daxili həyəcan, narahatlıq, mənəvi əziyyət, nigarançılığını aradan qaldırır. Bu üzdən xüsusən iztirablı vaxtlarda namaza sığınmaq tövsiyə olunmuşdur.

**7- Cəmiyyət arasında islahat etmək namaz və orucdan üstündür:**

Bir şeyi islah etmək onu yaxşılaşdırmaq məqsədilə edilən əsaslı dəyişiklikdir. Cəmiyyət arasında dini və sair sahələrdə olan nöqsanları aradan qaldırmaq ən önəmli və Allah dərgahında sevilən ibadətlərdəndir. Həzrət Əli (ə) bu barədə oğlu imam Həsən (ə) və imam Hüseynə (ə) buyurur: Sizə, bütün övladlarıma, əhli-beytimə və məktubum çatan hər bir kəsə təqvalı olmağı, Allahdan qorxmağı, işlərinizi qaydaya salmağı və aranızda ayrılığa səbəb olan ixtilafları həll etməyi vəsiyyət edirəm. Çünki mən sizin cəddinizin (s) belə buyurduğunu eşitmişəm ki: "İki nəfərin arasını (parçalanmaya səbəb olan ixtilafları) düzəltmək bütün namaz və oruclardan yaxşıdır." (14) Qurani-Kərimdə də bu məsələ yəni insanlar arasında islahat işləri aparmaq xüsusilə vurğulanan məsələlərdən sayılır: "…Buna görə də əgər (həqiqi) möminsinizsə, Allahdan qorxun, aranızdakı münasibətləri düzəldin..." (15)

**İstifadə olunan ədəbiyyat:**


1-"Ənkəbut" surəsi, 45-ci ayə.
2- "Ənam" surəsi, 162-ci ayə.
3- "Biharul-ənvar", 80-cı cild, səh: 16.
4- "Nəhcül-Bəlağə", 27-ci məktub.
5- "Nəhcül-Bəlağə", 428-ci hikmət.
6- "Nəhcül-Bəlağə", 199-cu xütbə.
7- "Nəhcül-Bəlağə", 192-ci xütbə.
8- "Nəhcül-Bəlağə", 199-cu xütbə.
9- "Nəhcül-Bəlağə", 136-cı hikmət.
10- "Məryəm" surəsi, 31-ci ayə.
11- "Nəhcül-Bəlağə", 199-cu xütbə.
12-"Nəhcül-Bəlağə", 80-cı xütbə.
13- "Nəhcül-Bəlağə", 299-cu hikmət.
14- "Nəhcül-Bəlağə", 47-ci məktub.
15- "Ənfal" surəsi, 1-ci ayə.


Hazırladı: ***Şəhriyar Əliyev***

# KAİNATIN SONSUZLUĞUNA DAİR SADƏ BİR DƏLİL



Kainatın sonsuzluğunu aşağıdakı sadə bir dəlillə isbatlamaq olar:

1. Əgər kainat sonlu olarsa, onda yoxluğun var olduğunu qəbul etməli olacağıq.
2. Yoxluğun var olması mümkünsüzdür, çünki ziddiyyətə gətirib çıxardır.
3. Deməli, kainat sonsuzdur.

İndi isə dəlilin izahı barədə:

Kainat sonlu olarsa, bu, o deməkdir ki, kainat bir nöqtədə sona çatır, bitir. Bu zaman belə bir sual ortaya çıxır: Həmin nöqtənin ötəsində nə dayanır? Ya nəsə var, ya da nəsə yoxdur. Başqa sözlə, ya varlıq var, ya da yoxluq. Fərzimizə görə, nöqtənin ötəsində nəsə yoxdur, yəni varlıq o nöqtəyə qədərdir, ondan sonra isə daha varlıq yoxdur. Digər tərəfdən isə bildiyimiz kimi "yoxluq" var ola bilməz, yəni yoxluq zatən yoxdur. Yox olan necə var ola bilər? Bu isə ziddiyyət deməkdir, yəni yoxluq həm yoxdur, həm də vardır. Odur ki, yoxluq varlığa yaddır, varlıq da yoxluğa. Bu əsasla, məlum olur ki, kainat heç bir zaman hər hansı bir nöqtədə sona çata və bitə bilməz. Maraqlısı odur ki, kainatın sonsuzluğu ədədlərin sonsuzluğu kimi deyil, yəni kainatın sonsuzluğu potensial sonsuzluq növündən deyil. Potensial sonsuzluq sonsuzluğun heç bir zaman aktuallaşa, gerçəkləşə bilməməsi deməkdir. Fəlsəfi sonsuzluq isə belə deyil. Fəlsəfi sonsuzluq aktual olaraq sonsuz olandır, yəni sonsuzluq sözün əsl mənasında gerçəkləşəndir. Bu baxımdan, kainatın sonsuzluğu riyazi yox, fəlsəfi sonsuzluq hesab olunur, çünki riyazi sonsuzluğun sonsuzluğu gerçəkləşmədiyinə görə, əslində, sonlu hesab olunur. Kainatı sonlu təsəvvür etsək, yuxarıda izah olunan problemə gətirib çıxaracaq ki, bu da qəbul edilməzdir.

Onu da qeyd edim ki, sonsuzluğu təkcə ağıl anlaya və isbatlaya bilər, vəssalam. Hiss və təcrübə isə heç bir zaman bunu nə anlaya, nə də isbatlaya bilər. Odur ki, kainatın sonsuz olub-olmaması məsələsi elmi yox, fəlsəfi məsələ hesab olunur.

# FƏRQLİLİK...

***Odur ki, insan haqqı, boş verin bu kimlərinsə sizə sırıdığı standartları, günlərini filanı, balaca uşaqsınız? Qurtulun bu "qrupun aftoriteti"ndən, özünüz istədiyiniz kimi yaşayın***



***Mən onun qara gözləri, uzun kiprikləri üçün deyil, gecələrimin səssizliyini pozan öskürəkləri üçün darıxmışam...***

Epiktet - eramız demək olar ki, bu adamla başlayır, 55-ci ildə anadan olub, çox keşməkeşli həyat yaşayıb, qul olub, adının mənası da elə belədir: "satılmış qul". Maraqlıdır ki, kişi azad olandan sonra yavaş-yavaş şöhrət qazanıb böyük filosofa çevrilsə də adını dəyişməyib. "Elə Epiktet yaxşıdı"- deyib, "qoy belə qalsın, eybi yoxdu". Yəqin bunun bir fərqi olmadığını düşünüb, düşünüb ki, belə baxanda hamımız müəyyən mənada quluq də, deyilik?

Onu stoisizm (hər şeyə rəğmən ayaqda qalıb gülə bilmək) fəlsəfəsinin 2 məşhur nümayəndəsindən biri sayırlar. İkinci məşhur nümayəndə - imperator Mark Avreliidir. Paradoksa bir baxın - stoisizmin sütunlarını üzərində saxlayan 2 filosofdan biri imperator, digəri isə quldu. Üçüncü nümayəndə də yəqin ki, mən olacam " bu yazının müəllifi. Bunu da cümə zarafatı qəbul edin.

Bir müddət əvvəl Epiktetin "Düşüncələr və söhbətlər" əsərini oxudum, çox gözəl kitabdı deməyim, yox, ona kitab demək olmaz axı, sanki küçəboyu səpələnmiş mirvarid dənələridir, sən də hansını görə bilirsənsə tez əyilib götürür, xurcununa yığırsan, gilələr o qədər çoxdur ki, bir də baxırsan ki, artıq iməkləməyə başlamısan.

"Düşüncələr və Söhbətlər" Epiktetin yeganə əsəridir - onu da özü deyil, şagirdi qələmə alıb. Epiktet həm də Sokrat heyranıdır, odur ki, söhbətlərində tez-tez onun həyatından misallar gətirir. Məsələn, Sokratı belə anır:

"Bəziləri Sokratın qapısına gedib onları bir filosofa aparmasını istəyərdilər, Sokrat da aparardı. (daha durub deməzdi ki, a kişi, elə ən böyük filosof mən özüməm də!) Filosof olduğu halda filosof sayılmamasından əsla şikayətlənməzdi, əksinə, bunun xoşbəxtliyini, mənəvi həzzini yaşayardı".

Əsl istədiyim isə, sizinlə Epiktetin bu fikrini bölüşməkdir, yazır:

"Təklikdə özü üçün mahnı oxuyan insana baxın, qətiyyən narahat deyil, nigaranlıq keçirmir, hüzurludur, hətta öz ifasından həzz də alır, lakin, siz ona bir də böyük bir kütlə qarşısında çıxış edən zaman baxın. Bu vaxt o özünü necə üzür, necə rəngi ağarır, onun ürəyi necə möhkəm döyünür. Bəs görəsən nəyə görə? Ona görə ki, bu vaxt o təkcə gözəl oxumaq istəmir, həm də istəyir ki, insanlar onu bəyənsin, tərifləsinlər. Bu istəyi də, aydındır ki, onun özündən deyil, dinləyicilərdən asılıdır, qəribə olan da elə budur: o özündən asılı olmayan bir şey üçün, yəni tamamilə yersiz yerə narahatdır".

Ömrünün uşaqlıq, yetginlik, hətta cavanlıq illəri ötüşə-ötüşə səndən uzaqlaşır və sən yavaş-yavaş gəlib bu qənaətin üstünə çıxırsan ki: sən indiyə kimi bütün varlığını ortaya qoyaraq səlahiyyətində olmayan, tamamilə başqalarına məxsus olan şeyləri əldə etməyə çalışmısan - bəyənilmək kimi. Bütün narahatlığının, yorğunluğunun da səbəbi elə budur! Gəl əyri oturub, düz danışaq: kiminsə səni bəyənib-bəyənməməsi sənin qüdrətinin əhatə dairəsində deyil axı, zorla gözəllik olarmı? Axı zövqlər, dünyagörüşlər çox müxtəlifdi. Başqalarının çeşid-çeşid zövqləri ilə hesablaşmağa çalışsan min sifətli olmazsanmı? Necə ki, olmusan da!

Anlayırsan ki, ay dili-qafil, özünü boş yerə həlak eləmisən!

İdrak edirsən ki, sən "bəyənilmək ehtirası ilə" düz bir ömür özün deyil, başqası "Gülməmməd, Qəzənfər, Xədicə, Hüsniyyə və nə bilim kim olmusan.

Ağrılı qənaətdir, deyilmi?

Bir də kütlə olmaq var, baxırsan ki, sən xalqsan, hamısan, elsən, obasan, axına düşüb şəngülüm kimi sevinə-sevinə tanımadığın bir istiqamətə tərəf qaçırsan; palaza bürünüb ellə sürünürsən, özünü zorla dartıb hansısa atasından bixəbərin düzüb qoşduğu "dünya standartına" uyğunlaşdırmaq istəyirsən. Niyə axı? Bəs sən kimsən? Bəs o standartı sən niyə yaratmırsan ki?

Axı sən bir individsən, sənin xüsusi bir ismin var, şəxsiyyətin var, bəs o hanı?

İndi bədbəxt insan yoxdu, hansısa standarta uyğun yaşaya bilmir deyə özünü bədbəxt hesab edən insan var!

Bir dəfə hərəsinin ev boyda iki-üç maşını, titanik gəmisi boyda evi olan dostlara demişdim: sürürsünüz sürün, yaşayırsız yaşayın, lakin bunların 70 faizi sizin ehtiyacınız deyil, hansısa standartdı.

Bu konteksdən baxanda imam Əlinin kəlamı necə də möhtəşəm səslənir: Zənginlik sərvətin çoxluğu deyil, ehtiyacların azlığıdır.

Odur ki, insan haqqı, boş verin bu kimlərinsə sizə sırıdığı standartları, günlərini filanı, balaca uşaqsınız? Qurtulun bu "qrupun aftoriteti"ndən, özünüz istədiyiniz kimi yaşayın. Tutaq ki, kimsə hardasa nəsə eliyib sonra da bu günü sizə "sevgililər günü" təyin eləyiblər, xeyir ola?! Kimdən əskiksiniz ki? Sevginizin də, həsrətinizin də gününü özünüz təyin edin. Bir də deyirəm: bəzən özünüzü kütlədən təcrid edin, təkləşin, individ olun, məhrəm günləriniz olsun, özünüzə aid, ailənizə aid; hamı evləndiyi günü filanı qeyd edir, siz ilk dalaşdığınız günü bayram eləyin. Fərqlilik yaradın, ad gününüzü iyulun yeddisində deyil, mayın beşində qeyd edin, deyin ki, bu il ürəyim belə istədi, sonra? Bütün bunları edin və əmin olun ki, dünya dağılmayacaq, ək-sinə, o, daha da gözəlləşəcək!

Baxın görün şair öz xəstə sevgilisinin ardınca necə fərqli darıxırdı:

Mən onun qara gözləri, uzun kiprikləri üçün deyil,
gecələrimin səssizliyini pozan
öskürəkləri üçün darıxmışam...

Son olaraq, bəri durun, qulağınıza bir söz pıçıldayacam: Hansısa standartlara uyğunlaşmamaq da, cizgiləri tapdamaq da olar, yetər ki, öz cızığınızdan çıxmayın!

İlqar Kamil

# İBADƏTIN FƏLSƏFƏSİ

## BİR AYƏNİN İZİ İLƏ

**"Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım!"** *Zəriyət/56*

Allah Qurani-kərimdə yaranışın səbəbini, xüsusilə insanın yaradılışını bəyan edir. Yuxarıdakı ayə də həmin məqsədi açıqlayan ayələrdəndir.

Ayəni təhlil etdikdə, bir neçə nöqtə ilə qarşılaşırıq:

1. İnsan ibadət üçün yaradılıb.
2. İbadət yalnız Allaha olmalıdır.
3. Allahın yaradılışdan məqsədi budur ki, insan ibadət etsin.
4. İnsana yazılan bu tale dəyişilməzdir?!

Bu məqalədə son nöqtəni təhlil etmək niyyətindəyəm, amma mövzu yaxşı anlaşılsın deyə, əlavə bir neçə nöqtə qeyd etməliyəm:

1. Allah hikmət sahibi, alim, qadir və diridir.
2. Hikmət sahibi o şəxsdir ki, işləri bihudə və puç deyil, əksinə hər bir işi məntiqli, obyektiv bir hədəfi təqib edir.
3. Sözü gedən ayədə də, Allahın işi hədəfsiz deyil, bu mənada ki, Allahın məqsədi öz həqiqətinə qovuşmalıdır.

İndi də, mövzuya keçək. Ayəni təfsir edərkən iki oxunuşla qarşılaşırıq və zənnimcə, ikinci nəzər (hansı ki, mən onu irəli sürmək istəyirəm) daha dəqiqdir. Gəlin birbir onları gözdən keçirək:

1.

Allah insanları ibadət üçün yaradıb.

Allah hikmət sahibi olduğu üçün bu işi də bihudə deyil.

Deməli, insanlar mütləq Allaha ibadət etməlidirlər, əks təqdirdə Allahın bu işi bihudə sayılacaq.

Lakin, Allahın yaratdığı insanların bəzisi (yaxud əksəriyyəti) ona ibadət etmir.

Deməli, Allahın bu işi öz həqiqətini tapmayıb.

2.

Allah insanları ibadət üçün yaradıb.

Allah hikmət sahibi olduğu üçün bu işi də bihudə deyil.

Deməli, insanlar mütləq Allaha ibadət etməlidirlər, əks təqdirdə Allahın bu işi bihudə sayılacaq.

Lakin, insanların hamısı Allaha ibadət edir və bu ibadət ixtiyari yox, icbaridir (təkvini)dir.

Deməli, Allahın bu işi də hikmət üzündəndir.

İddiamıza dəlil kimi, bu ayəni göstərmək olar:

"Rəbbin yalnız Ona ibadəti ... təqdir etmişdir". İsra/23

Azərbaycan dilində bir çoxları ayəni belə tərcümə ediblər: "Rəbbin yalnız Ona ibadət etməyi ... buyurmuşdur". Lakin ayədə keçən "qəda" kəlməsi heç də buyurmaq mənasında deyil. Təfsirçilər "qəda"nı qəti əmr etmək, qərar vermək, hökm vermək mənalarına tərcümə etmişlər. Amma nəzərimcə, burada "qəda"nın mənası həmin təqdir etməkdir. Ona görə ki, ibadətin leksik mənası zillətdir. Bəndə isə insan üçün zati sifətdir və sifət üçün xüsusi bir təklifə, əmrə ehtiyac yoxdur. Əksinə hər bir şey Allahın qarşısında müti və bəndədir, necə ki, ayə deyir: "Rəbbin yalnız Ona ibadəti ... təqdir etmişdir".

Digər tərəfdən Allahın təqdiri (təkvini) inkar və rədd edilə bilməz.

Deməli, insan istəsə də, istəməsə də, bilsə də, bilməsə də, Allaha mütidir; Ona ibadət və bəndəlik edir.

Lakin bəndəliyin dərəcələri, dünyanın imtahan meydanı, yaxşı pisin zidd olduğunu nəzərə alsaq, kimin necə ibadət etməsi öz əhəmiyyətini qoruyub saxlayır. Əlbəttə, ixtiyarla olan ibadət həmin təkvini ibadəti yaxşı yöndə inkişaf etdirir.

Nəticə etibarı ilə qeyd edim ki, məqalədə məqsədim Allaha ibadətdən boyun qaçıranların zatən Allaha bəndə olduğunu xatırlatmağım, bu bəndəlikdən imtinanın mümkünsüzlüyünü nəzərə alıb, həmin reallığı düzgün dəyərləndirməyi təmənna etməyimdir.

Xəyal Tofiqoğlu

# HƏYATI BƏZƏN BU QƏDƏR DÖZÜLMƏZ VƏ CANSIXICI EDƏN NƏDİR?

***Bəzən həyat insan üçün olduqca dözülməz, cansıxıcı və bezdirici olmağa başlayır. Amma təəssüflər çox insanlar bu cür halları yaradan amilləri axtarıb, tapıb, öyrənə bilmədiyi üçün, illərcə adıkeçən halların çəngindən yaxa qurtara bilmir. Sözsüz, bu cür halların vaxtında əlac olunmaması bir çox insanın ailə, təhsil, iş və başqa sosial əlaqələrinə xoşagəlməz əngəllər yaratmaya bilməz. Əxlaq tədqiqatçısı Mustafa Məlikyana görə bu halları yaradan bir neçə əsas amillər mövcuddur:***



1. Hər şeydən öncə insan bacardıqca keçmiş və gələcəkdən özünü qoparmalı və bu anı, bugünü yaşamağı öyrənməlidir. Çox adam keçmişin xoşagəlməz xatirələrinin üstünə xətt çəkməyə cəhd etmədiyi üçün müxtəlif cür iztirab və sıxıntılardan yaxa qurtara bilmir. Həmçinin, insan gələcək haqda uzun-uzadı arzu, xəyallar və planlar üzərində mümkün qədər az düşünməli, bu gün və bu an etməli olduğu işləri etməli, sahib olduqlarına qane olub, onlardan həzz almağa adət etməlidir. Başqa sözlə desək, keçmiş keçib, gələcək isə hələ gəlməyib, elə isə indini, bugünü yaşamaqla həyatından və sevdiklərinlə birgə keçirdiyin anlardan həzz almağa çalış.

2. İnsanlar çox zaman həm özlərini başqalarıyla, həm də ki, başqalarını özlərilə müqayisə etməyi sanki bir hünər bilirlər. Bu səbəbdən bu cür insanlar sakit və dinc bir həyat yaşaya bilmir. Niyə mənim yoxdu onun var, niyə o filan məqama, şan-şöhrətə çata bilib, ancaq mən çata bilmirəm kimi yersiz müqayisələr. Bu cür yaşam zamanla insanın qəlbində həsəd və kin-küdurət hissi yaratmaqla bərabər, həyatı və insanları dözülməz edir. Hətta belə insanlar bəzən başqalarının sevinc və uğurlarını əngəlləmək xatirinə hər şeyi, canını belə xətərə atmaqdan çəkinmirlər. Bu tip adamlar bəzən başqalarıyla müqayisədə özünü doğrulda bilmədiyi üçün intiharı belə gözə alırlar. Bu səbəbdən mütəfəkkirlər insanlara bacardıqca özlərini başqalarıyla müqayisə etməkdən uzaq qaçmağı tövsiyə edir. Mustafa Məlikyanın fikrincə, insan öz keçmiş və bugünkü həyatı arasında müqayisə aparmalıdır. Mən dünəndən bu günə nə qədər dəyişmişəm, nə kimi uğurlar qazanmışam və sabah nə kimi nailiyyətlər qazana bilərəm və s.

3. Çox zaman nə ilə nəticələnəcəyinin fərqində olmadan bəzi adamlar öz taleyini başqalarının özü haqda qiymətləndirməsinə təslim edir və həyatını başqalarının meyarlarına uyğun tənzimləməyə çalışır. Təhsil, iş, ailə və ictimai həyatını kənar adamların meyarlarına uyğun yaşayır. Filankəs birdən nə deyər, fəhmənkəs birdən yanlış anlayar kimi yanlış düşüncələr. Bu cür yaşamın ən böyük ziyanı insanın öz istək və imkanlarının gözardı etməsinə gətirib çıxarmasıdır. Təbii ki, öz istək və imkanlarını gözardı edib, istəmədiyin, bacarmadığın seçimləri edib özünü doğrulda bilməmək insana yaşamı dözülməz, cansıxıcı və iztirabverici edəcəkdir. Bu səbəbdən insan bacardıqca başqalarının özü haqda fikir və qiymətləndirməsinə az önəm verməli, seçimlərini öz imkanlarına, bacarığına və psixoloji durumuna uyğun tənzimləməlidir. Həmçinin, insan özünəinam və özünəönəm hissini yüksək tutmalıdır. Əgər bir insan başqalarının özü haqda qiymətləndirməsinə əsasən öz imkanlarına inanıb, özünü önəmsəyirsə, nə vaxtsa insanların onu daha az önəmsədiyini, daha az diqqət ayırdığını görsə özünəqapanma kimi xoşagəlməz hallarla üzləşməsi qaçılmazdır.

4. Əksər insanlar özləri üçün dəyişməz və mütləq qanunlar düzəldib, həyatlarını o qanunlarına əsasən yaşadıqları üçün o qanunlara xilaf bir iş gördükdə isə sarsılır və depressiyaya qapanırlar. Belə ki, bəziləri fikirləşir ki, bir dostun, qohumun xəyanət etməsi, yalan danışması, vədinə xilaf çıxması qeyri-mümkündür. Yaxud dünyada bədəl ödəmədən nəyəsə nail ola bilməyin mümkünlüyü kimi mütləq olduğunu sandıqları bir çox başqa qaydalar. Mütəfəkkirlər insanlara beyinlərini bacardıqca bu cür dəyişməz olduğunu sandıqları qanunlardan təmizləməyi tövsiyə edirlər. Əks təqdirdə bu qaydaların insan üçün iztirab, depressiya və özünəqapanma kimi xoşagəlməz nəticələr doğurması istisna olunmur.

5. Dünyada bəzi şeylər var ki, insan onlara tam kontrolu ələ ala bilər. Ancaq bəzi şeylər də var ki onları müəyyən həddə kontrol etmək mümkündür. Misalçün, bir hədəf seçib və bu hədəfin gerçəkləşməsi üçün səy göstərmək insanın öz ixtiyar və kontrolunda olan bir şeydir. Ancaq böyük səy göstərməklə hədəfin gerçəkləşməsini müəyyən həddə kontrol etmək mümkündür. Çünki seçilən hədəfə kainatda insanı kontroldan xaric bir çox amillər təsir göstərə bilər. Amma təəssüflər olsun, bir çox insan bu reallığı qəbul etmək istəmədiyindən dolayı və nəticənin gerçəkləşməsinin tam onların ixtiyar və kontrolunda olduğunu düşündükləri üçün, gördükləri işdə (İş, təhsil, ictimai fəaliyyətdə) istədikləri nəticəni ala bilmədikdə hər şeyə, hər kəsə bədbin olmağa başlayırlar. Bu cür insanlar zamanla özünəqapanma kimi hallarla üzləşirlər. Bu səbəbdən insan seçimlər edərkən mümkün qədər nəticə haqda az düşünməlidir. Çünki necə ki, az öncə dedik, dünyada insanın kontrolundan xaric çox şeylər vardır ki, etdiymiz işlərdə, seçdiymiz hədəflərdə gözlənilməz nəticələrin doğrulmasına səbəb ola bilər. Quran dilindən ifadə etsək, sən seçimini et, çalış və nəticəni Allaha həvalə et.

6. Həyatın mənası nədir sualı hərçənd qədimdə insanları az-çox maraqlandırardı, ancaq bu sual müasir dövr insanını daha artıq maraqlandırır və çox vaxt bu suala cavab tapa bilmək üçün hər şeyi (İstəklərini, dini inanclarını və s) fəda etməyi belə gözə alanlar tapılır. Bir çox mütəfəkkirlərin qənaətinə görə, insan bu cür həyati önəmi olan suallarla üzləşməməsi üçün vaxtında bu suallara qaneedici bir cavab tapmalıdır. Başqa sözlə desək, insan həyatına, yaşamına, arzularına bir məna, bir anlam verməlidir. Nə üçün yaşayıram, nə üçün oxuyuram, nə üçün və kim üçün çalışıram kimi suallar bir gün bir çox insanın üzləşəcəyi suallardır. Əgər insan öncədən həyatına, çalışmalarına, zəhmətlərinə bir məna və yaxud bir anlam verməsə, adıkeçən suallarla üzləşəndə artıq bir çox şey üçün gec olur. Əksər insan adıkeçən suallara öncədən önəmsiyib, lazımi cavablar tapmadıqları üçün bu suallarla üzləşib, qaneedici cavab tapa bilməyəndə artıq həyat bezdirici, cansıxan və dözülməz olur. Necə deyərlər, həya-tın mənasızlığını dadmadan, həyata bir məna vermək lazımdır.

Sonda onu da əlavə edim ki, adıkeçən amillərdən başqa səbəblər də insanın həyatını dözülməz və cansıxıcı edə bilər. Ancaq bu amillərin ən əsas olması və onlara vaxtında önəm verilməsi insanın həyatında gərginliyi artıran bir çox başqa amilləri də önləməyə kömək edə bilər.

Bəşər Məmmədov

## BEŞİNCİ İMAM MƏHƏMMƏD BAQİR (Ə)-IN HƏYATINA BİR BAXIŞ




İmam Muhəmməd Baqir (ə) beşinci ilahi Rəhbərdir. İmam Səccadın (ə) övladları arasında elm, dindarlıqda və xoş rəftarlıqda onu həddə uca kamalata çatmış şəxs müsəlmanlar arasında görsənmədi.

Beşinci İmam (ə) Mədinə şəhərində, hicri tarixi ilə 57 ci ildə Rəcəb ayının birində dünyaya göz açdı. Atası İmam Səccad (ə) anası isə Fatimə İmam Həsənin qızı (ə) idi. Valideynlərinin hər ikisi Fatimə övladı idi.

Həzrətin şəhadəti Zilhiccə ayının yeddisi 114 hicri tarixində, ömrü 57 il olmuşdu.

Dəfn yeri: Mədinənin Bəqi qəbristanlığı. İmamı zəhərləyən şəxs İbrahim ibn Vəlid oldu ki, Əməvilər hökuməti dövrünə aiddir.

19 il İslam ümmətinə İmamlıq etdi.

İmamın adı Muhəmməd, künyəsi Əbu Cəfər və ləqəbi isə Baqirəl Ulum, yəni elmləri yaran.

İmam 3-4 il arasında İmam Hüseynin (ə) İmamət dövrünü dərk etdi, hətta Kərbəlada belə oldu.

Peyğəmbərin (s) salamının İmam Baqirə (ə) çatdırılma rəvayəti: Həzrət İmam Sadiq (ə) atasından nəql edir: Cabir ibn Abdullah Ənsarinin (gözləri görməyən Peyğəmbər (s) səhabəsi) yanına getdim. Dedi: Kimsən? Dedim: Məhəmməd Əli oğlu. Dedi: Oğlum yanıma gəl. Yanına getdim əlimdən öpdü və istədi ayağımdan öpsün qoymadım.

Dedi: Allahın Rəsulu sizə salam göndəriblər! Hadisə haqda soruşdum.

Dedi: Bir gün Peyğəmbərin (s) yanına getdim. Həzrət (s) buyurdu: Ey Cabir! Güman ki, sənin ömrün uzun ola və mənim övladlarımdan olan Məhəmməd Əli (ə) oğlunu gördün. Allah ona nur və hikmət vermişdir. Onu görsən mənim salamımı çatdır.

Elvir Həsənoğlu

# NİZAMİ, FÜZULİ VƏ NƏSİMİ HANSI ŞƏRABDAN YAZIRDILAR?

***İrfan aləmi və təsəvvüf terminləri ilə tanış olmayan bəzi şəxslər ariflərin qələmindən çıxmış klassik ədəbiyyat nümunələrindəki "şərab" və "mey" sözlərini zahiri mənada qəbul edirlər. Onların fikrincə, həmin şeirlərin müəllifləri həqiqətən, içki məclislərində sərxoşluq və əyyaşlıq etmiş, hətta bunu gizlətmədən öz əsərlərində də təbliğ etmişlər.***







Əslində ruhaniyyat və irfan aləminin sultanları olan, əsərlərini minacat və nəatlərlə başlamağı özlərinə fəxr bilən, dəfələrlə müqəddəs ziyarətgahlara gedib Allaha sədaqətlərini əməlləri ilə sübuta yetirən minlərlə Şərq şairi (millətindən asılı olmayaraq) bu "ittiham"ların hədəfinə çevrilmişdir. Müsəlman fikir aləminin iftixarı sayılan Nizami Gəncəvi, Xaqani Şirvani, Ömər Xəyyam, Həkim Sənai, Hafiz Şirazi, Şəms Təbrizi, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai, Mühəmməd Füzuli, Seyyid Əzim Şirvani kimi nəhəngləri şərabxorluqda təqsirləndirmək ən azı insafsızlıqdır. Əgər bü mütəfəkkirlərin yaradıcılığına nəzər salsaq, görərik ki, onlar həmişə məcazi meydən və şərabdan danışmış, həqiqi şərabı isə haram bilmişlər.

Bu məqalədə müsəlman dünyasının böyük irfan sahibləri olan məşhur şairlərdən bir neçəsinin məstedici içkiyə olan münasibəti barədə onların öz əsərlərindən sübutlar verilir. Orta əsrlərdə Yaxın Şərqin klassik ədəbiyyat dili fars dili olmuş, təqribən XIV əsrə kimi Azərbaycan şairlərinin də böyük əksəriyyəti bu dildə yazmışlar. Ona görə də, Xaqani və Nizami kimi dahi Azərbaycan şairlərinin beytlərinin farsca orijinalını deyil, Azərbaycanca tərcüməsini təqdim edirik.

İrfan ədəbiyyatının öncüllərindən olan, şeirdə "qələndəriyyə" adlanan üslubun ilk nümayəndələrindən sayılan Həkim Sənai Qəznəvi öz əsərlərində ilk baxışdan əyyaşlara mənsub olan ifadələri simvolik dillə işlətmiş ilk şairlərdən sayılır. O, "Hədiqətül-həqiqə" məsnəvisində sərxoşluq gətirən əsil şərab haqqında belə yazırdı:

***Şəraba meyl etməyin nə faydası var?***
***Əvvəli şər, axırı su yoluna getməkdir...***
***Onun sirrindən ürəkdə sevinc yaranmaz,***
***O, insana mənəm-mənəmlikdən başqa heç nə verməz.***

Başqa bir yerdə Sənai belə yazır:

***Gecə yatmaq, gündüz isə şərab dalınca düşmək,***
***Bunlardan savayı dini və malı korlayan şey varmı?!***

Məşhur Azərbaycan şairi Xaqani Şirvani isə şəriətin haram buyurduğu şərabı "şeytanın sidiyi" adlandırırdı:

***Badəni ağıl üzərində hakim etmə!***
***Divi mələk üzərində rəhbər etmə!***
***Mənim xatirim Keyxosrovun camıdır,***
***Kainatın sirrini aşkar edir.***
***Bu camdan halal səlsəbil (cənnət suyu) iç,***
***Haram cəhənnəm zəhərindən uzaq ol!***
***Şeytanın sidiyini şüşəyə tökmə,***
***Onu ağıl həkiminin yanına aparma!***

Dünya şöhrətli Nizami Gəncəvi sanki gələcəkdə ruhuna qarşı irəli sürüləcək ittihamları görürmüş kimi elan edirdi:

***Mənim saqim Allahın vədəsidir,***
***Qədəhim - özümdən getmək, meyim - özümü itirməkdir.***
***Yoxsa Allaha and olsun, nə qədər ki, ömür sürmüşəm,***
***Şəraba ağzımı bulaşdırmamışam.***
***Əgər ağzım meyə dəyibsə,***
***Allahın halal buyurduğu mənə haram olsun!***

Bu gün təəssüf ki, çoxlarının dinsiz kimi tanıdığı, Azərbaycanın mütəfəkkir oğlu Seyyid İmadəddin Nəsimi öz qəzəllərində yeri gəldikcə, eşqin meyindən məst olduğunu car çəkir, başqalarını da haram şərabı atıb, bu meydən nuş etməyə çağırırdı:

***Eşq əlindən gəl şərabi-Səlsəbilü Kövsər iç,***
***Keç bu meydən kim, çəkərsən ertə rəncindən xumar.***

Nəsimi insanları vəhdət meyindən içməyə, yəni ilahi mərifət və bilgilər kəsb etməyə həvəsləndirir:

***Şirin ləbidir dilbərin vəhdət meyin peymanəsi,***
***Ey zahid, ol peymanədən məst ol ki, xoş peymanədir!***

Nəsimi açıq-aydın göstərir ki, başqaları üzüm suyunu içirlərsə, o, eşq meyini içir:

Maül-inəbdəndir (üzüm suyu)əgər hər sərxoşun sərxoşluğu,
Mən içmişəm eşqin meyin, sərməstü xummar olmuşam.

# Müsəlman və Möminlərin, bir-birinin üzərindəki haqları



أَحَسِبَ النَّاسُ أَنْ يُتْرَكُوا أَنْ يَقُولُوا آمَنَّا وَهُمْ لَا يُفْتَنُونَ

İnsanlar (möminlər) yalnız: "İman gətirdik!" – deməlәrilə onlardan əl çəkilib imtahan olunmayacaqlarınımı sanırlar? (Xeyr, iman gətirmək şəhadət kəlməsini təkcə dillə demək deyildir. Biz onları yeri gəldikcə malları, övladları və canları ilə sınayacağıq ki, hansının həqiqi, hansının yalançı mömin olduğunu ayırd edib bilək!) (Ənkəbut,2).

İnsan övladı olaraq dünyaya gəlmək, heç kimin şəxsi bacarığı ilə baş vermiş bir şey deyil. Bu düşüncəyə inananlara "Məntiqsiz"dən başqa bir ad vermək mümkün deyil. Aydın məsələdir ki, hər bir insanın yaradılışında İlahi iradə olub. Allah-taala biz insanlara verdiyi ən böyük nemət, bizim var olmağımızdır. Əgər biz olmasaydıq, ətrafımızdakıları müşahidə etməzdik, bu qədər yaxşılıqları, rəngarəng nemətləri, daxili sevinc hisslərini və bir çox adi sözlərlə dərk edilməyən gözəl anları hiss edə bilməzdik. Hər birimizə məlumdur ki, yaşadığımız kiçik dünyada bir çox canlılar var. Amma bu canlılar arasında Allahın Şah əsəri sayılan insan övladı, bütün varlıqlardan üstündür. Bu üstünlük şərəfi o vaxt kamilləşər ki, biz uca Tanrının, bizə ən böyük nemətləri bəxş edən mehriban Allahın qanunlarına tabe olaq. Əgər bizim ən üstün varlıq olmağımız sadəcə insan olduğumuza görə olsa, onda "Zalımla Məzlumun, Fironla Musanın (ə) və Yəzidlə Hüseynin (ə) nə fərqi var? Dünya sınaq dünyasıdır və məhz bu sınaqlardan düzgün keçməklə insan oğlu Allahın yaratdıqları arasında ən üstün yaradılmış varlıq sayılar. Əks təqdirdə insan övladı şüursuz heyvanlardan belə aşağıda yerləşəcəkdir. Necə ki, Allah-taala Əraf surəsinin 179-cu ayəsində, İlahi qanunlara tabe olmayıb, mənəvi baxımdan tənəzzül etmişlərin barəsində buyurur: Onlar heyvan kimidirlər, bəlkə də, (ondan) daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!

Həmin sınaqlardan biri Allaha iman gətirən və özünü əsl mömin hesab edənlərin bir-birilərinin üzərində olan haqlarından ibarətdir. Hər bir insanın uca Yaradan qarşısında müəyyən vəzifələri vardır. Misal üçün, əsl Allah bəndəsi gərək namaz qıla, oruc tuta, həccə gedə, kasıblara yardım edə və s. Amma insanın vəzifələri yalnız Tanrı qarşısında ibadət etməklə məhdudlaşmır. Allah-taala özünə ibadət etməyi vacib buyurduğu kimi, öz qullarına ehtiram etməyi, onların dərdinə şərik olmağı və onlara dəstək olmağı da vacib edib. Bu barədə Peyğəmbər (s) və İmamlardan (ə) bir çox hədis və rəvayətlər nəql olunub. Misal üçün, Peyğəmbər (s) buyurur: "Hər kim səhərə kimi yatsa və müsəlmanların çətinliklərinin həlli üçün zəhmət çəkməyib bu işə əhəmiyyətsiz yanaşsa, müsəlman deyil". Hədisə diqqət yetirsək görərik ki, İslam Peyğəmbəri (s) müsəlmanların çətinlikləri ilə maraqlanmayan şəxsi öz ümmətindən hesab etmir. Həmçinin Şeyx Səduq (r.ə) əl-Xisal kitabında İmam Sadiqdən (ə) aşağıda qeyd olunan hədisi nəql edir. Həmin hədisdə imam Sadiq (ə) buyurur: "Möminin mömin üzərində yeddi haqqi var ki, Allah onlara riayət etməyi hər bir möminə vacib edib və onların hər birinin barəsində Allah-taala onu sorğu-suala çəkəcək. (Həmin haqlar aşağıdakılardan ibarətdir):

1- Mömin gərək öz mömin qardaşını kiçimsəməyə və onu öz gözündə əzəmətli görə.

2- Qəlbində ona qarşı məhəbbəti ola.

3- Öz maddi imkanı ilə ona yardım edə.

4- Özü üçün bəyənib-sevdiyi şeyləri eyni ilə öz mömin qardaşı üçün də sevib bəyənsin.

5- Onun qeybətini haram bilə.

6- Mömin qardaşı xəstələnsə, onun ziyarətinə gedə.

7- Mömin qardaşı dünyasını dəyişsə, onun dəfnində iştirak etsin və dəfndən sonra onun haqqında yaxşılıqdan başqa bir şey danışmasın.

Kərbəlayi Elçin Əliyev

# "FATİMƏ" adının mənası

***O həzrətə (ə) bu mübarək adın verilməsi ilə bağlı müxtəlif rəvayətlər nəql olunmuşdur. Biz bu rəvayətləri nəql etməzdən öncə xatırlatmaq istəyirik ki, müqəddəs "Fatimə" adı "fətm" sözündən törəmiş, kəsmək və ayırmaq mənalarını ifadə edir. Bu mənada "futimət əl-ummu tifləha", yaxud "fətəmət əl-həbl" ibarələri ardıcıllıqla "ana uşağını süddən ayırdı", "ip qırıldı" mənalarını ifadə edir.***



Əllamə Məclisi bu haqda yazır:

"Bir çox hallarda indiki zaman feli sifəti keçmiş zaman feli sifəti mənasında işlənir. Misal üçün, "sirrun katimun" (gizli sir), "məkanun məmurun" (abad məkan) ifadələri bu qəbildəndir. Necə ki, Qurani-kərimdə də deyilir: "Fi iyşətin raziyə", yəni fi iyşətin mərziyyə".

İndi isə bu müqəddəs adla bağlı bəzi rəvayətlərə nəzər salaq:

**Onun ardıcılları alovdan amanda qalmışlar.**

Altıncı imam (ə) ataları vasitəsi ilə Peyğəmbərdən (s) nəql edir: "Vəhy mələyi mənə ismarıc gətirdi ki, bu dəyərli qız uşağı yerdə "Fatimə" olaraq adlandırıldı. Çünki onun həqiqi ardıcılları cəhənnəm odundan amanda qalacaqlar" ("Bihar əl-ənvar", c. 43. Səh. 18).

Allah, onu və ardıcıllarını alovdan amanda saxlamışdır.

Səkkizinci imam (ə) ataları vasitəsi ilə Peyğəmbərdən (s) nəql edir:

"Ey Fatimə! Bilirsənmi nə üçün sənə bu ad verilib?" İmam Əli (ə) soruşdu: "Nə üçün?" Həzrət (s) buyurdu: "Buna görə ki, o və həqiqi ardıcılları cəhənnəm odundan amanda qalacaqlar" ("Bihar əl-ənvar", c. 43. səh. 14; "Yənabi əl-məvəddə", səh. 194).

Həmçinin buyurmuşdur: "O, "Fatimə" adlanmışdır, çünki Allah-Taala onu və onun nəslindən olan və dünyadan tövhidlə, mənim gətirdiyimə imanla köçən hər kəsi cəhənnəm odundan amanda saxlayacaq" ("Bihar c. 43. Səh. 14).

Digər bir rəvayətdə deyilir: "Qızım Fatiməyə (ə) ona görə bu müqəddəs ad verilmişdir ki, Allah onu, nəslini və həqiqi sevənlərini cəhənnəm odundan amanda saxlayacaq" ("Yənabi əl-məvəddə", səh. 397; "Nur əl-əbsar", səh. 41).

Həmçinin beşinci imamdan nəql olunan bir hədisdə deyilir: "Qiyamət günü Fatimə (ə) cəhənnəmin qapısına yaxın bir yerdə dayanacaq və üzünü səmaya tutub münacat edərcəsinə deyəcək: "Allahım, Pərvərdigarım, sən məni Fatimə adlandırdın, öz mərhəmətinlə məni və sevənlərimi cəhənnəm odundan amanda saxla. İlahi, sənin vədin doğrudur, vədlərinə qarşı çıxmırsan". Bu zaman Allah tərəfindən səs gəlir: "Ey Fatimə, doğru dedin. Mən səni belə adlandırdım. Səni və himayəndə olan sevənlərini, nəslini cəhənnəm odundan amanda saxlamışam. Doğru deyirsən, vədim haqdır və mən öz vədlərimi pozmuram ("Bihar əl-ənvar", c. 43. Səh. 15).

**Onu pisliklərdən amanda saxladı.**

İmam Sadiqdən (ə) nəql olunur: "Bilirsinizmi, "Fatimə" sözünün mənası nədir?" Tələbələrindən biri dedi: "Biz bilmirik, siz buyurun nə olduğunu". Həzrət (ə) buyurdu: "Yəni, o pisliklərdən, çirkinliklərdən uzaqdır". Sonra buyurdu: "Əgər Əmirəlmöminin (ə) onunla müştərək həyata imza atmasaydı, qiyamətədək dünyada ona tay tapılmazdı".

Qeyd etmək lazımdır ki, bu rəvayəti bir çox əhli-sünnə alimi və hədisşünası da nəql etmişlər. Onlardan İbn Şiruyənin adını çəkmək olar. Peyğəmbərin (s) xanımlarından Ümmü-Sələmə deyir: "Əgər Allah Əlini (ə) yaratmasaydı, Fatiməyə tay tapılmazdı".

Bu mətləbi Xarəzmi "Məqtəl əl-Hü-seyn", Tirmizi "Mənaqib", Mənavi "Künuz əl-həqaiq", Qunduzi "Yənabi əl-məvəddə" kitabında Ümmü-Sələmədən və Peyğəmbərin (s) əmisi Abbasdan nəql etmişlər.

**Onu tanımağın bərəkəti**

Altıncı imamdan nəql olunur: "Peyğəmbərin (s) müdrik qızı Fatimə (ə) ona görə belə adlandırıldı ki, yaradılış onu tanımaqdan götürülmüşdür" ("Bihar əl-ənvar", c. 43, səh. 65).

**Başqalarından üstün cəhətləri**

İmam Baqirdən (ə) nəql olunur: "Fatimə (ə) dünyaya gəldikdə Allah bir mələyə vəhy etdi ki, "Fatimə" adını Peyğəmbərin (s) dilinə gətir. Peyğəmbər (s) Allahın istəyi ilə onun adını "Fatimə" qoydu. Sonra Allah o fəzilətli xanıma buyurdu: "Mən səni bilik və görüş vasitəsi ilə başqa bəndələrimdən ayırdım və onların hamısından üstün etdim. Səni pak və pakizə etdim". Sonra İmam Baqir (ə) buyurdu: "Allaha and olsun ki, Allah o dəyərli xanımı bilik və görüş vasitəsilə başqalarından üstün qılmışdı və elə "zərr" aləmindəcə onu pak-pakizə etmişdi".

# ATEİZMİN FƏSADLARI

## Alternativ olaraq dindar dünya görüşünün faydaları.




Hər bir insan bu dünyanın bir parçasıdır. Kimliyindən asılı olmayaraq, bu böyük səhnədə öz rolunu ifa etməkdədir. Bir ömür savadından, təhsilindən asılı olmayaraq, öz daxili hisləri ilə daima münaqişədə və daxilindəki ''mən'' ilə hesablaşmaqdadır. Özü də bilmədən, hislərinin əsirinə çevrilərək, bəzən nikbin və bəzən də bədbin olaraq, ətrafına təsir etmək gücünə sahibdir. Şəxsi düşüncə tərzlərinin ilahi bir sistemə söykənməyərək, şəxsi maraqlar güdməsi, cəmiyyətdə hərc-mərcliyə gətirib çıxarır. Bu hədəfə çevrilir. Hər bir insan, özü üçün və ona yaxın olan insanlar üçün, öz düşüncə tərzinə uyğun olaraq, daima xoşbəxtlik axtarışına çıxır. Əksəriyyət bu xoşbəxtliyi pulda, kimisi şöhrətdə, kimisi vəzifədə və sairə maddi və hislərlə qavranan ünsürlərdə görür. Əgər bu ünsürləri incələsək, elə bir adam tapa bilmərik ki, öz həyatında onlardan az-çox dadmamış olsun. Elə bir insan tapmaq olmaz ki, öz səviyyəsinə və cəmiyyətdəki mövqeyinə görə nə vaxtsa ilkin arzuladığı pula, şöhrətə, mövqeyə heç bir dəfə də çatmamış olsun. Bu həqiqətən belədir! Amma arzular bitirmi ? Bütün istəklərə çatmaq mümkündürmü? Əsla !

İlahi qanunlara bağlanmadan sürülən ömür, dəniz suyu kimi elə içdikcə yanğı gətirir. Uğursuzluğa düçar olan insan məğlubiyyətlə barışmaq istəmir. Hər yola əl atır. Nəticədə maddi istəklər onu yırtıcıya çevirir. Əli hər yerdən üzüləndə özünə sual verir. Axı niyə belə oldu? Hanı bəs ədalət ? Allah ?...

Bu tam əksinə olaraq, əksər arzularına çatan insanlar haqda da keçərlidir. Gün-gündən artan sərvət, maneəsiz irəliləyişlər, yüksək məqamlar...Nəticədə ''bu mənim bacarığımın nəticəsidir'' əminliyi yaradır. Firon bu mərhələyə çatandan sonra ətrafına baxaraq deyir: "Mən sizin ən uca rəbbinizəm" (Naziat 24).

Amma, bu iki tip insanların nəticə etibarı ilə, dünyadakı son aqibətləri demək olar ki, eyni olur. Biri arzular girdabında qovrularaq həsəd, kin, inkar içində ölümə çatır. Digəri doyumsuzluq burulğanında təkəbbür və inkar ilə ölümə çatır. Ölüm isə qaçılmazdır! Bütün bunlar dini şüurdan uzaq düşmüş, bir çox hallarda zahirdə inanclı, amma hərəkətlərində və daxilində inancsız olan ATEİST təfəkkür daşıyıcılarının həyat tərzidir. Ateist təfəkkür cəmiyyəti meşəyə çevirən bir boşluqdur. Zehnlərdə "bacarıqlılar və bacarıqsızlar" təbəqəsini yaradır. "Heç nəyə baxmayaraq çalış qalib ol" şüarını beyinlərə həkk edir. Nəticədə cəmiyyətdə hədəflərin yanlışlığından, istəklərin çoxluğundan asılı olaraq faciələr yaşanmağa başlayır. Cəmiyyətdə çoxlarına tanış olan bir misal çəkmək istəyirəm. Bir çox ailələrdə qadının kişiyə "niyə filankəs qazanır sən yox? Sən kişi deyilsən!" üsyanını çoxlarınız eşitmisiz. Yaxud imkanlı ailənin uşağının öz ailəsində eşitdiyi sözləri dilinə gətirərək, müəlliməsinə "atam sizi satın alar" sözləri də reallıqlardandır. Ailə və təhsil sistemi cəmiyyətin ana damarları olduğunu nəzərə alsaq, inancsız bu tip halların haralara aparıb çıxarması məlum olur. Ailələr dağılır, ailə-məişət zəminində qətllər çoxalır, süni ovundurma vasitələri olan alkoqolizm və narkomaniya geniş vüsət alır, intiharlar artır, maddiyata tapınan bir sürü gənc cəmiyyətə buraxılır. Bunlar ateizm düşüncəsinin dünyada buraxdığı qara izlərdir. Axirət tərəfi isə daha qaranlıq görünür. Amma dini təfəkkür tərzi həyatımızda olan hər bir hadisəni imtahan və sınaq olaraq təqdim edir. Əlbəttə ki, bu fəlsəfəni anlayıb səbr edənlərə həm dünyada, həm də axirətdə böyük mükafat vəd edilir. Quran buyurur ki, biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbr edənlərə müjdə ver. (2/155) Göründüyü kimi ateist təfəkkür əksər hallarda uğursuzluqdan və firavanlıqdan qaynaqlanır. İlahi qanun insanların zəif tərəflərini onlara xatırladır və buyurur: "Şeytan sizə yoxsulluq vəd edir və pis işləri əmr edir. Allah isə sizə Öz tərəfindən bağışlanmaq və xeyir-bərəkət vədəsi verir". (2/268) Zənginləri isə qorxudur: "Mal-dövlətiniz və övladlarınız sizi Allahdan yayındırmasın! Və kim belə etsə bələləri ziyankarlardır".(63/9)

Bir insanın ateist təfəkküründə olması üçün, heç də

onların kitablarını oxuması lazım deyil. Çünki hər bir insan ömründə bir dəfə də olsa həyat və ölüm, başlanğıc və son haqqında düşünür. Amma nəticə əldə etmək üçün çoxları səy etmir. Nəfsi istəklər dünyaya bağlılıq və ya məsuliyyətdən yayınma istəyi bəzi "müəllimlərin" belə sözlərini "boş ver hamısı nağıldır" qənaətbəxş sayır. Quran bu mətləbə çox ustalıqla toxunur: "Və dedilər: Bu keçmişlərin əfsanələridir" (25/5)

Dini dünya görüşü insanları məsuliyyətli olmağa özü ilə birgə digərlərini də sevməyə çağırır. Milliyətindən və rəngindən asılı olmayaraq bütün insanların Allah qarşısında insan olaraq bərabərliyini təmin edir. Maddi nemətlərin bərabər paylanması üçün varlılara paylaşmağı (xums, zəkat timsalında) bir əxlaq norması kimi yox vəzifə olaraq əmr edir.

Yuxarıda sadalanan bütün fəsadları dəf etmək üçün köklü surətdə düzgün dini maariflənməyə ehtiyac var. Nəzərə almaq lazımdır ki, dini təfəkkürün də səhv çatdırılması, bəzi




dünyapərəst insanların əlində alət olmasına gətirib çıxarır. Buna bariz nümunə son illərdə baş vermiş dini müstəvidə olan, qanlı olaylardır. Bunun qarşısını almaq üçün orta məktəblərdə və ailə daxilində sistemli dini maarifləndirmə aparmaq zəruridir. Uşaqlara hələ körpə vaxtlarından insanlara sevgi aşılamaq, ətrafına qarşı laqeyd olmamağı öyrətmək lazımdır. Başqalarının dini inanclarına hörmət edilməsi zəruri hal kimi qeyd olunmalıdır. Nəzərə almaq lazımdır ki, İslam dini plüralizmin bütün növlərini rədd etmir.

Səyavuş Yəhyayev

# KVANT FİZİKASI VƏ ÖLÜMDƏN SONRAKI HƏYAT

Bir çox alimlər ölümdən sonrakı həyatın olduğuna inanmır, lakin ekspertlərdən biri ölümdən sonra həyatın mövcudluğunu sübut edə bildiyini təkid edir.

Professor Robert Lans bildirir ki, onun sübutu kvant fizikasında gizlənir. Biosentrizm nəzəriyyəsinə əsasən bizim anladığımız ölüm şüurumuzun yaratdığı illüziyadır .

"Biz hesab edirik ki, həyat karbon və molekulun aktivliyindən ibarətdir. Onlar aktiv olduğu müddət biz yaşayırıq, daha sonra torpaqda çürüyürük'.Lans bu fikri öz veb saytında yazıb.

Şimali Karolina universitetinin tibbi məktəbindən olan Lans qeyd edir ki, insanlar buna öyrədildiyi üçün ölümə inanır, çünki onlar ölümü daxili orqanların fəaliyyətinin dayanması ilə assosiasiya edir. Ancaq biosentrizm nəzəriyyəsi ölümün öyrəşdiyimiz anlama gəlmədiyini göstərir.

Biosentrizm hər şeyin nəzəriyyəsi kimi təsnif edilir, yunan dilindən "həyatın mərkəzi" kimi tərcümə olunur. Professor təxmin edir ki, həyat və biologiya reallıqda mərkəz yeri tutur və həyat kainatı yaradır, kainat həyatı yox. Bu da öz növbəsində məhz insan beyninin kainatda obyektlərin forma və ölçüsünü təyin edir.

Lans bizim ətraf dünyanı necə dərk etdiyimizi misal gətirir. İnsan səmanı görür və onun rəngini deyir, əgər onun beynində hüceyrələr dəyişsə, o, səmanı mavi yox, yaşıl və ya qırmızı rəngdə görər.

"Yekun: Sizin gördüyünüz heç nə şüurunuz olmadan mövcud ola bilməz. Kainatın mənası bizim şüurumuzdadır".

Kainata biosentrizm nəzəriyyəsi nöqteyi-nəzərindən baxılarsa, zaman və məkanın da "ağlımızın sadə aləti" olması anlamına gəlir. Bəşəriyyət bu nəzəriyyəni qəbul edən kimi, ölümün mövcud olmadığı aydın olacaq.

Bundan əlavə nəzəriyyəçi fiziklər təxmin edir ki, "n" qədər kainatda müxtəlif variasiyalarda insan və hallar eyni zamanda baş verir. Lans əlavə edib ki, baş verə bilən hər şey hansısa an bu kainatlar arasında olur, bu isə ölümün mövcud olmadığı anlamına gəlir.

Lansın fikrincə, insan həyatı çoxillik bitki kimidir və o multi-kainatda çiçək açmaq üçün geri qayıdır.

# MODERN İNSAN
# tənha bir varlıqdır

### Modernist yaradıcı insan xarici aləmə arxa çevirmişdir




İsna İnformasiya Agentliyi İran şairlər məclisinin toplantısından yazır. Bu məclisdə Mürtəza Kaxi Amerikada çalışan professor Riza Qənnadanı təqdim edərək deyib: "Qədimdə deyərdilər ki, təqdim edən şəxs (müərrif) təqdim edilən şəxsdən məhşur olmalıdır. Amma bu dəfə belə deyil. Əgər mən ustad Qənnadanın təqdimatını öhdəmə götürmüşəmsə, bunun səbəbi onun xaricdə yaşamasıdır. Olsun ki, məclisdəkilərdən bəziləri onu tanımaq imkanı əldə etməyib. Doktor Qənnadan Bircənd əhlidir. O Məşhəddə Firdovsi Universitetində təhsil alıb. Onun təhsil aldığı dövrdə doktor Yusifi kimi alimlər orada tədris edib. Sonra Britaniyaya gedib, magistr və doktorluq dərəcəsi alıb. Mən İranda olduğum müddətdə ondan modernizm və modernləşmə barədə danışmasını istədim. O Amerikada bu mövzuda tədrislə məşğuldur və İranda olması bizim üçün qənimətdir."

Sonra Said Baqiri Doktor Riza Qənnadanı dəvət etdi ki, tribunaya çıxsın. Alim öz söhbətinə modernizmin araşdırılmasında müqəddimə ilə başladı: Mövzumuz modernizmdir. Biz Qərb ədəbiyyatından danışarkən iki mövzunu bir-birindən ayırmalıyıq. Bunlardan biri yaradıcılıq, digəri tənqiddir. Bu gün tənqid sahəsi ədəbiyyat nəzəriyyəsi kimi tanınır. İki mövzu arasında əlaqələr inkarolunmazdır. Amma onları ayrı-ayrılıqda araşdırmalıyıq. Birinci mövzudan danışarkən impressionizim, postimpressionizim kimi cərəyanların əhatə dairəsi müəyyənləşdirilməlidir. Müasir tənqid ənənəçilik, yeni ənənəçilik, hermeneftika kimi mövzular üzərində dayanır. Mən modernizm haqqında birinci mövzudan başlayıram... İncəsənət sahəsində təcrübələr, xüsusilə postmodernizm dövründə bu sahədə baş verənlər müxtəlif cəmiyyətlərin məqsədə çatmaq üçün incəsənətdən istifadə etməsinə, bu sahədə məharətlərin artmasına səbəb olur. Biz bu məqsədlə hazırda modernizmdən danışırıq... Farsdillilər üçün ən mühüm nöqtə budur ki, modernizmin modernləşmə olmadığını bilsinlər. Bir çox mətnlərdə biz bu iki məfhumun eyni şəkildə qəbul edildiyini görürük. Modernizm Qərb tarixinin bir hissəsidir. O, Dekartdan başlayır və Avropanı orta əsrlərdəki durumdan çıxararaq davam edir. Yenilikçilik ədəbiyyat və incəsənətdə modernizm adını alıb. Amma məsələ çox da sadə deyil. Modernizm əslində modernləşməyə qarşıdır. Yəni modernizm modernləşmənin mənfi cəhətlərinə reaksiyadır... Biz modernizmdən əvvəlki müəlliflərin, o cümlədən Dante, Molyerin və başqalarının əsərlərinə baxdıqda görürük ki, bu cərəyan 19-cu əsrin ortalarında ortaya çıxmışdır. Ərəstunun verdiyi tərifə əsasən insan ictimai varlıq sayılır. Klassik ədəbiyyat bu prinsip üzərində qurulub. Bu cərəyan düzgün dəyərləndirmədə mənfi yük daşıyır və ağrılıdır. Modernistlərin təsəvvürünə görə modern insan tənha bir varlıqdır. Onu bünövrədən tənha sayırlar. Haydigerin modern insan haqqında sözü budur ki, insan varlığın dərinliyinə atılmışdır. Modern incəsənətin mahiyyəti bundan ibarətdir. İnsan bu fəzada metafiziki baxımdan yerləşir. Modernistlər həm də buna görə tənqid olunur ki, nəzərdə tutulan tənhalıq tarixi durumdan yaranmışdır... Əgər filosof və ya şair özünə qapılsa xarici aləmə etinasız olar. Necə ki, Əflatun xarici aləmə etinasız idi. Mütaliə etdikdə görürük ki, tarixi bir problem fəlsəfi bir problemə çevrilib. Modernizmə də belə tənqidi yanaşmaq olar... Klassik şeir təqlidçiliyə əsaslanıb. Şairin ilham mənbəsi xarici aləmdir. Burada həm tarixi aləm, həm də təbiət nəzərdə tutulur. Klassik ədəbiyyatda mövzu nə qədər dolaşıq olsa da, ondakı elementlər oxucuya tanışdır. Modernizm qarşıya məqsəd olaraq qoyur ki, yaranış təqlidin yerini tutmalıdır. Gördüklərimiz nə təbiətdə var, nə də tarixdə. Çünki modernist yaradıcı insan xarici aləmə arxa çevirmiş, özünə qapılmışdır... Ədəbiyyat, şer, rəsm və musiqidə dəyərli görünən modern əsərlər kifayət qədərdir. Elyotun "Zireh əyaləti" əsəri Britanyada ən təsirli poetik əsərlərdən sayılır. Bu əsərin Qərb poeziyasına təsiri böyük olub. Əsər insanın qurtuluşa doğru cəhdlərindən danışır. Amma bu təlaşlar elə bir mühitdə baş verir ki, ətrafdakı ünsürlər həmin təlaşlara münasib deyil. Yəni qurtulmaq istəyən insana hər şey mane olur...

Doktor Qənnadanın çıxışından sonra məclisdəkilər ona suallarını ünvanladılar. Eləcə də Əhməd Riza Əhmədi şer tərcüməsində böhran, ədəbi tənqidin şeirə mənfi təsirindən söz açdı.

Vilayet.nur-az.com

# TƏCRÜBİ ELMLƏR BAXIMINDAN
# İMAM MEHDİNİN (Ə.F) UZUNÖMÜRLÜLÜYÜ




**Məhdəviyyət mövzusunun ən mühüm və diqqəti cəlb edən məsələlərindən biri də İmam Mehdinin (ə.f) uzunömürlülüyü məsələsidir. Bu mövzu daim islam mütəfəkkirləri arasında diskussiya və müzakirə mövzusu olmuş. Bu barədə müxtəlif iradlar və bu iradlara cavablar verilmişdi.**

**Bu yazıda isə məqsədim mövzunun dini qaynaqlarımızda qeyd olanlara (Quran və hədislərə) əsasən deyil, təcrübi elmlər vasitəsi ilə araşdırılmasıdır. Güman edirəm ki, bu yazıda qeyd edilənlər dəyərli oxucular üçün faydalı və bu məsələ barədə zehnlərindəki pərdəni az da olsa, kənara çəkə biləcək təsir gücünə malik olacaq.**

## Mövzunun təcrübi elmlər vasitəsi ilə araşdırılması

***Ruhi və cismi xəstəliklər insan ömrünü qısaldan amillərdən biridir.***

Allah-taala insanları yaratdıqda onların ömrünü birinin digərininki ilə müqayisədə bərabər təyin etməmişdir. Təcrübə və elmin də isbatladığı kimi, insan ömrünün müddətinin təbii amillərlə birbaşa əlaqəsi vardır. Yaşadığımız dünyada bir çox müxtəlif bakteriya, mikrob və virus növləri kəşf edilmişdir ki, insan həyatının müddətinə təsir etmə məsələsində bilavasitə rol oynaya bilər.

Bu məcmuənin bəzi amilləri insan yaşayışı üçün təhlükəli olub onun həyatını təhdid etməkdədir. Lakin onların varlığı da bəşərin naqis elmi sayəsində zədələnmiş ekosistemin dövr etməsi üçün zəruridir. Digər tərəfdən də bu gün bəşərin müdaxiləsi nəticəsində müxtəlif növ zərərli və öldürücü zəhərli maddələr yer kürəsində yayılmaqdadır. Maşınqayırma, yeyinti və digər sənaye məhsullarının qarışıq və zərərli tərkibi buna misal ola bilər. Həmçinin məlum statistik göstəricilərə əsasən, dünya cəmiyyətinin yüz milyondan çoxu aclıq və səfalət içindədir. Belə olan halda yer kürəsinin əhalisinin çox hissəsi ilkin gigiyenik vasitələrdən belə məhrumdurlar. Bunun nəticəsində insan bədəninin həyatverici qüvvələri yalnız qismən olaraq fəaliyyət göstərir, getdikcə zəifləyir və nəticədə bədən öz müqavimətini itirir.

Bəşərin özü üçün yaratdığı müəyyən çətinliklər nəticəsində qazanılan ruhi sarsıntıları da bu məcmuəyə əlavə etsək, məsələnin əhəmiyyəti bir az da artacaq. Həqiqətən də, ruhi sarsıntılar insan ömrünün tükənməsinə gətirib çıxaran amillərdəndir. Cismi xəstəliklərin 80%-i ruhi xəstəliklər və sarsıntılar nəticəsində baş verir. İnsan fiziologiyası ilə işləyən həkimlərin əksəriyyəti insan bədənindəki xəstəliklərin elə bədənin özündən və əsəb sisteminin pozulmasından qaynaqlandığını desə də, əsəb sisteminin özü də cismin bir hissəsi olub beyin vasitəsi ilə birbaşa ruha tabedir.

Sual oluna bilər ki, "bəs nəyə görə keçmiş zamanlarda da insanların həyatı qısa olub?" Cavabında deyərik ki, əgər keçmiş dedikdə uzaq keçmiş nəzərdə tutulursa, görəcəyik ki, o zamanlarda insanların ömrü bugünkü qədər qısa olmamışdır. Həmin dönəmlərdə statistik qurumlar və bu statistikanı qeyd edəcək təşkilatlar olmadığından onların yaşları və yaşadıqları müddət barədə məlumatlar bizə gəlib yetişməyib. Lakin öz zamanında fərqlənən və cəmiyyətdə müəyyən statusa malik

olan şəxslərin həyatı və onların uzunömürlülüyü barədə məlumatlar tarixi, dini mətnlər vasitəsi ilə və yaxud da dildən-dilə ötürülərək günümüzə qədər gəlib çatmışdır. Biz bu məsələyə "Mövzunun Quran və hədislər vasitəsi ilə araşdırılması" bölməsində işarə edəcəyik. Yox əgər keçmiş dedikdə yaxın keçmiş nəzərdə tutulursa, bunun da səbəbi uzaq keçmişdəkindən fərqli olaraq cəmiyyətdəki kütləvi artımdır. Cəmiyyət artdıqca isə onların tələbatlarının ödənilməsi, cismi və ruhi baxımdan sağlamlıq problemlərinin aradan qaldırılması çətinləşir. Bu baxımdan da həyat müddəti getdikcə qısalır.

Bu deyilənləri nəzərə almasaq belə, bu gün elm sübut edib ki, insan sosial tələbatlarından qaynaqlanan ehtiyaclarını doğru-düzgün ödəyib cismi və ruhi aramlığa və sağlamlığa nail olarsa, həyat müddətini uzada bilər. Bəşərə təcrübələr və ya digər vasitələr nəticəsində aydın olub ki, insanın həyatı və diri qalması üçün deyil, ölümü üçün səbəb lazımdır. Məhz elə buna görə də kiminsə ölüm xəbərini eşitdikdə dərhal "nədən öldü?", "nə xəstəliyi vardı?" və s. soruşuruq.

Bu kiçik müqəddimədən sonra mövzu barədə əhatəli izahata başlayaq.

## İmam Mehdinin (ə.f) sağ qalması barədə tibbi arqumentlər

Dünyadan köçən hər bir kəsin ölüm səbəbi hər hansısa bir xəstəlikdir. Tibb deyir ki, əgər hər bir insan gigiyenik qaydalara riayət edərsə, daim sağlam qalaraq uzun müddət yaşamağa qadirdir. Bu insan orqanizmindəki bütün hüceyrələrə də aiddir. Bu mənada ki, insan orqanizmini təşkil edən hər bir kiçik hüceyrə zərərli və məhvedici təsirlərdən uzaq olarsa, uzun müddət yaşama qabiliyyətinə malikdir.

Bioloq, fizioloq və cərrah Dr. Aleks Karl deyir: "Zaman ötməsi qocalığa gətirib çıxaran səbəb deyil".

Dr. Karl "İnsan adlı məchul" kitabının beşinci fəslində bu barədə əhatəli şəkildə danışaraq qeyd edir ki, əgər qidaların tərkibi sabit saxlanılarsa (yəni, gen modifikasiyasına uğramış sağlam qida qəbul edib sabit qida rasionuna malik olsaq), hüceyrələr kompleksi daim öz fəaliyyətinə davam edəcəkdir. Əgər həcmin artmasının (kökəlmənin) qarşısı alınarsa, insanda qocalma da baş verməyəcək.

Dr. Karl Amerikanın "Rokfeller" elmi-tədqiqat mərkəzində tədqiqatla məşğul olduğu zaman heyvanın bədənindən ayrılmış üzvünün heyvanın adi yaşayış müddətindən də çox



saxlanılmasına nail olmuşdur. O, cücənin bədənindən ayrılmış üzvü 8 il diri və canlı saxlamağa nail olmuşdur. Bu alim öz elmi araşdırmaları və apardığı təcrübələr barədə ətraflı söhbət açaraq deyir: "Əgər diri hüceyrələrdə qida çatışmamazlığı olmayıb onlara mikrobların nüfuzunun qarşısı alınarsa, onlar davamlı olaraq sağ və diri qalacaqdır. Əlavə olaraq qeyd olunan bu üzvlər (hüceyrələr) heyvanın bədəninin bir parçası olduğu zaman inkişaf edib çoxalmağa malik olduqları kimi, diri olduqda da inkişaf və çoxalma qabiliyyətinə də malikdirlər. Hətta bu inkişaf və çoxal manın əndazəsini onları qidalandırmaqla da ölçmək olar".

Bu böyük alimin əhatəli araşdırmasının nəticəsi bundan ibarətdir ki, hüceyrələrin zəifləməsinin və onların fəaliyyətinin dayanmasının səbəbi zamanın ötməsi ola bilməz. Onlarda qocalığın azacıq da olsa təsiri müşahidə olunmur. Deməli, məlum olur ki, qocalıq səbəb deyil, nəticədir.

## Qocalıq səbəb deyil, nəticədir

Dr. Aleks və həmçinin digər elm adamları bu təcrübəni insandan ayrılan ürək, böyrək, əzələ, dəri və s. üzvlər üzərində keçirmişlər. Nəticədə həmin üzvlərə lazımi qida maddəsinin ötürüldüyü müddətcə diri qaldığının və inkişaf etdiyinin şahidi olmuşlar.

Dr. Aleks toyuqdan ayrılmış bir ürək üzərində apardığı təcrübə zamanı onu qida maddələri ilə zəngin bir mühitdə saxlamışdır. Əldə etdiyi böyük elmi nailiyyət və nəticədən biri də zamanın ötməsinin həmin ürəyin zəifləməsinə, inkişaf və fəaliyyətinin dayanmasına az da olsa təsir etməməsi olmuşdur. Buna əsasən, alimlərin əldə etdiyi nəticə budur ki, lazımi qida maddələri və diri bir mövcudun ehtiyac duyduğu hər bir şey ona yetişərsə, zamanın ötməsi onun zəifləmə və qocalmasına azacıq da olsa, təsir etmə imkanına malik deyil.

Bu təcrübəni ilk dəfə heyvanlardan ayrılmış üzvlər üzərində aparan şəxs "Rokfeller" elmi-tədqiqat mərkəzində fəaliyyət göstərən Dr. Bob Lob olmuşdur. O, mayalandırılmış yumurta hüceyrələrindən qurbağaların inkişafını tədqiq etdiyi zaman onlardan bəzilərinin uzun müddət yaşadığını və bəzilərinin isə tez öldüyünü müşahidə etmişdir. Elə bu məsələ onun bu təcrübəni qurbağadan ayrılmış üzvlər üzərində həyata keçirməsinə bais olmuşdur. Bu təcrübələr nəticəsində onların uzun müddət diri qalmasına nail ola bilmişdir.

Qocalığın səbəb olmadığı aşkarlandıqdan sonra insanın nə üçün və hansı səbəbdən ölməsini və yaşayış müddətinin qısalmasını araşdırmaq maraqlı olardı.

Nəyə görə qocalırıq?! Bu sualın cavabında deyə bilərik ki, insanın və heyvanın bədən üzvləri çox və müxtəlifdir. Bu üzvlərin arasında müxtəlif rabitə və bağlılıq vardır ki, birinin həyatı digərinə bağlı və ondan üstündür. Əgər hər hansısa bir səbəbdən bu üzvlərdən biri zəifləyib ölərsə, digərlərinin də zəifləməsinə və nəticədə ölməsinə gətirib çıxaracaq. Buna dəlil olaraq mikrobların hücumundan baş verən ani ölümləri misal göstərmək olar. Bu məsələlər insanlardakı orta ömür müddətin 80 ildən az olmasına gətirib çıxarmışdır. Xüsusilə də bəzi uşaqlar bu təsirlər

nəticəsində hələ körpə ikən dünyasını dəyişir. Bu günə qədər isbatlanan şey budur ki, bir şəxsin ölümünün səbəbi onun 70 və ya 80 il yaşaması deyil, hansısa xəstəlik və dağıdıcı amil bədən üzvlərindən (hüceyrələrindən) birinə həmlə edərək, onun müqavimətini sarsıdaraq məhv etməsidir. Üzvlər arasındakı rabitənin varlığını nəzərə alaraq deyə bilərik ki, bir üzvün ölməsi (hüceyrə kompleksinin dağılması) digərinin də zəifləməsi və nəticədə ölümünə gətirib çıxarır. Deməli, elm bu yan təsirlərin və insan orqanizminin məhvinə gətirib çıxaracaq amilləri zərərsizləşdirərək onların təsirinin qarışını alacaq vasitələri taparsa, artıq bir neçə yüz və ya min il yaşamaq üçün heç bir maneə olmayacaqdır.

Gofland adı ilə tanınmış almaniyalı alim bəşərin adi yaşayış müddətinin 200 il, 19-cu əsrin məşhur fiziloqu Flüger bunun 600, ingiltərəli Cou Bink isə min ilə bərabər olduğunu qeyd etmişlər. Lakin onlar bu dedikləri konkret yaş sərhədləri üçün heç bir dəlil təqdim etməmişlər.

Həkimlərdən biri deyir: ***"İnsanın ömrünün müddəti və həmin müddəti keçdikdən sonra yaşamasının qeyri-mümkün olması üçün heç bir hədd təyin olunmamışdır. İnsanın bədən üzvləri ayrı-ayrılıqda uzun müddət yaşamaq xüsusiyyətinə malik olaraq qurulub".***

Alimlərdən biri insan ömrünün digər varlıqların ömrü ilə müqayisəsi barədə geniş araşdırmalar apardıqdan sonra insan bədəninin min illərlə yaşamaq xüsusiyyətinə malik olaraq qurulduğu qənaətinə gəlmişdir.

İnsanın bədən üzvləri uzunmüddətli yaşayış qabiliyyətinə malikdir. Bəzi alimlər deyirlər: ***"Canlıların bədən üzvləri uzunmüddətli yaşamaq qabiliyyətinə malikdirlər. Heç bir hadisə baş verməzsə (yan təsirlər olmazsa), insan min illərlə ömür sürə bilər".***

"Cons Mans" Universitetinin müəllimi Raymon Virl deyir: ***"İnsanın bədən üzvləri uzunmüddətli yaşamaq qabiliyyətinə malikdir. Bu məsələ dəfələrlə aparılmış təcrübələr nəticəsində də öz təsdiqini tapmışdır".***

"Kaliforniya" Universitetinin patoloji dəyişkənliklər üzrə mütəxəssisi olan Roy Li və Valfordun dediklərinə əsasən, qocalıq hüceyrələrin yerini dəyişməsindən qaynaqlanan uzunmüddətli bir xəstəlikdir. Qocalığın müəyyən mərhələləri maddələr mübadiləsinin, vəzilərdəki ifrazatın və s. pozulması kimi fiziologiyanın dağılmasındakı qanunauyğunluqlarla bağlıdır.

Qərb alimlərindən biri deyir ki, bağırsaqdakı mikrobların fermentasiyasından yaranan zəhərli maddələr və qəbizlik qocalığa gətirib çıxaran amillərdən olması mümkündür. Əgər bunların qarşısı alınarsa, insan ömrünün müddəti uzana bilər. Elmi cəhətdən də bu xəstəliyin müalicəsi mümkündür. Təcrübəli mütəxəssislərin səyi nəticəsində bu iş gələcəkdə praktiki olaraq həyata keçiriləcək.

Qeyd olunanları nəzərə alaraq deyə bilərik ki, İmam Mehdinin (ə.f) uzunömürlü olması elm və əqlin ziddinə deyil. Bəlkə də, bu cür məsələlər yeni elmi kəşflərin yaranmasına səbəb olmuşdur. Belə ki bu inanc nəticədə bəşərin uzun müddət elmi araşdırmalardan sonra uzunömürlülüyün sirrini kəşf edəcəyinə gətirib çıxaracaq.

Bəşərin uzunömürlü olmasının mümkünlüyünü ortaya qoyan bir çox alimin apardıqları təcrübələr barədə məlumat verdik. Əldə etdiyimiz nəticə bundan ibarət oldu ki, əgər münbit şərait, düzgün qidalanma və yaşayış şərtləri, o cümlədən insanın sağlamlığına təsir edəcək kənar amillər olmazsa, uzunömürlülüyə nail olmaq olar.

## İstisnalar barədə müzakirə

İmam Mehdinin (ə.f) uzunömürlülüyünün tarixdə analoqu görünməmiş və yeni bir məsələ olduğunu fərz edək. Bəs elmdə, ixtiralarda, incəsənətdə və s. sahələrdə qeyri-adi istedada malik vunderkindlərin analoqu varmı?! Əgər İmam Mehdinin (ə.f) uzunömürlü olmasını absurd hesab ediriksə, o zaman gərək qeyd edilən sahələrdəki qeyri-adi bacarığa malik olan insanların varlığını da absurd hesab edək. Halbuki istisnalar təbiətdəki heyvanlar, bitkilər və s. də özünü qabarıq şəkildə biruzə verir ki, onların bəzilərinə işarə edək:

### a) Heyvanlar

Bəzi balinalar 1700 ilə qədər ömür sürmüşlər.

Sabiq Sovetlər İttifaqının tədqiqatçı alimləri Şimal Qütbünə yaxın olan Yakutsk vilayətində neçə min illər bundan öncə o zamana qədər sağ qalmış bir ilbizin növünü tapmışdılar.

Atlantik okeanındakı balıqların 3 milyon il ömür sürdükləri müşahidə olunub ki, onların arasında neçə min il ömür sürən ilan balıqları da vardır.

Eyni halda yer üzündə elə heyvanlar vardır ki, bir neçə andan artıq ömür sürmür.

### b) Bitkilər

Meksikada 2000 il ömür sürmüş bir Suri adlı ağac, Amerikada isə "Meşənin anası" adı ilə tanınan bir ağac vardır. Onun uzunluğu 300 addımdır (müasir tədqiqatçı və səyyahlardan bəziləri 400 addım olduğunu deyir). Onun gövdəsinin yerə yaxın olan hissəsinin eni 300 addım, qabığının qalınlığı isə 18 qarışdır.

Kaliforniyada 300 addım uzunluğu



olan, 30 addıma yaxın ərazini əhatə edən və 6000 il yaşayan Kaci ağacı vardır. Bu ağacdan da qeyri-adisi Kanadanın adalarından olan (Cəzairül-Xalid kimi tanınmış) Tetrif adasının Urutava şəhərindədir. Bu ağacın əhatə etdiyi ərazi o qədər böyükdür ki, əgər on nəfər əl-ələ versələr belə, yenə də onun gövdəsini bütünlüklə dövrəyə ala bilmirlər. ***"Allahın aşkar nişanələri"*** kitabının müəllifi yazır: ***"1882-ci miladi ilidir. Artıq 482 ildi ki, o ada kəşf edilib. Bu ağac ada kəşf olunan gün necə idisə, heç bir dəyişikliyə uğramadan bu günə qədər də elə o cür qalıb. Belə ağaclar sürətli inkişaf prosesinə malik olmadığından kim bilir bu ağac neçə əsrlərlərdən sonrakı inkişaf nəticəsində bu səviyyəyə gəlib çatıb. Botaniklərdən biri bu ağacın yaşının təyin edilməsindən aciz olduğunu qeyd edərək***




***"Bəşər bu sirri kəşf etməyə və bu ağacın təqribi yaşını belə təyin etməyə acizdir."***

## c) Maddələr

Bütün mayelərin həcmi hərarət zamanı artır, kristallaşdıqda isə azalır. Halbuki su maye olduğu halda müstəsna olaraq bu qaydaya aid deyil. Əgər belə olmasaydı, qışda temperaturun aşağı düşməsi ilə çay, dəniz və okean sularının həcmi azalar və havada öz təsirini buraxardı.

İmam Mehdinin (ə.f) uzunömürlü olmasını absurd hesab edib inkar edənlərə demək lazmdır ki, necə ola bilər ki, bitkilərdə, heyvanlarda və təbiətdə istisnaların varlığını, onlardan bəzilərinin müstəsna olaraq ömrünün uzunluğunu qəbul edirsiniz, lakin Allahın höccəti olan İmam Mehdinin (ə.f) müstəsna olaraq uzunömürlü olmasını qəbul etməyib absurd hesab edirsiniz?! Allahpərəst olmayan bir şəxsin imamın uzunömürlülüyünü elmin də isbatladığı müstəsna hal olaraq qəbul etməsi gərəkdiyi halda bu mövzunu inkar etməsi təbii qarşılana bilər. Lakin bəzi Allahpərəstlərin, İsanın (ə) atasız dünyaya gəldiyini, Musanın (ə) əsasının əjdahaya çevrildiyini qəbul etdikləri halda İmam Mehdinin (ə.f) uzunömürlü olmasını inkar etmələri heç bir çərçivəyə sığmır. Məgər Allahın qüdrəti inandıqlarınıza çatır, lakin öz Höccətini diri və uzun müddət sağ saxlamağa çatmır?!

## Mühit, qidalanma və tibbi preparatların təsiri

Son illərdə tibbin inkişafı nəticəsində canlı varlığın ömrünü uzatma xüsusiyyətinə malik olan dərmanlar kəşf edilib. Misal olaraq canlı varlıqların ömrünü iki dəfə artıran "Liostrol" adlı dərmanı göstərə bilərik. İngiltərəli bir doktor bu mövzu barədə geniş və əhatəli qeydlərinin birində deyir ki, alimlər meyvə həşəratlarının birinin ömrünün həmin növdən olan həşəratların adi yaşayış müddətindən 900 dəfə artırılmasına nail ola bilmişlər. Bu nailiyyətin səbəbi isə bu həşəratı zəhərli maddələr və onun həyatı üçün təhlükə törədəcək bütün amillərdən uzaqda saxlayıb onun üçün münasib yaşayış mühitinin hazırlanması olmuşdur. Deməli, belə bir mühit insan üçün də yaradılarsa, onun da ömrünün uzanmasına nail olmaq olar. Başqa sözlə desək, Peyğəmbər (s) və imamların (ə) nəql etdiyi hədislərdən aldığımız nəticə budur ki, onlar özlərinin, xüsusilə də İmam Mehdinin (ə.f) yaşayış tərzini bir növ fərqli və xariqüladə olaraq vəsf etmişlər. Xariqüladəlik isə qeyri-mümkün və absurd demək deyil. Elmi cəhətdən də hər bir xariqüladə işin absurd və ya qeyri-mümkün adlandırılması doğru hesab edilmir.

## Bəşərin təbii və adi məsələlərə inamı

İnsanlar yaşadıqları müddətcə bir sıra təbii və adi məsələlərə adət edirlər ki, onun əksini duyduqda onu həqiqətdən uzaq və qeyri-mümkün hesab edirlər. Fəlsəfə deyir: ***"Təbiətdə baş verən hadisələr adi və nadir olmaqla yanaşı, bir çox qeyri-adi hadisələrin də baş verməsini müşahidə etmək mümkündür. Bu şeylər dəqiq hesablamalar, arqumentlər əsasında dərk olunmadığından, onlar barədə dəqiq və qəti elmi dəlillər olmadığına görə inkar edilə bilməz".***

Diqqət olunası məqam budur ki, bugünkü elm bir çox şeyləri əhatə etməmişdir və hazırda bəşər bir çox şeylərin həqiqətindən qafildir. Bu məqamda bu sual yerinə düşərdi ki, uzunömürlülüyün qeyri-mümkün hesab edilərək inkar olunmasına dair hansısa əqli və məntiqi arqument varmı?! İndiyə qədər insanın yaşayış müddətini təyin edən (onun nə qədər olduğunu deyən) mövzular barədə yazılmış kitablar oxumusunuzmu?! Hansı alim və ya filosof insan ömrünün müddətini təyin etmişdir?!

İndi isə adi məsələni qeyri-adi məsələdən fərqləndirmək üçün bir misal çəkək. Buğda dənəsini adi halda bir-iki ildən artıq anbarda saxlamaq mümkün deyil. Lakin onu sünbülün üzərində 70-80 il və ya daha çox saxlamaq mümkündür. Belə ki, Misir ehramlarında sağlam və inkişaf qabiliyyətinə malik sünbül üzərində olan buğda dənələri aşkarlanmışdır ki, bəzilərini əkmiş və yaşıllaşdığının şahidi olmuşlar. Bunlar adi halda iki ildən artıq qalması mümkün olmayan buğda dənələridir ki, saxlanma şəraiti dəyişdikdə onların qalma müddəti 2000 dəfə artmışdır. Belə ki, bu ehramlardan tapılmış buğda dənələri 4000 il bundan öncəyə aiddir.

Bu yazılanlardan alınan nəticə budur ki, elmi cəhətdən müəyyən şəraitdə insanın uzun müddət diri qalmasının mümkünlüyü və onun min illər boyu yaşaması qeyri-mümkün hesab edilə bilməz. Çünki bu qeyri-təbii iş əqli baxımdan qeyri-mümkün deyil və onun inkarı üçün də heç bir qəti arqument yoxdur.

Bəhruz Camal

# MƏZHƏBLƏRARASI DOSTLUQ VƏ ANLAŞMAYA NECƏ NAİL OLMALI?

***Əlbəttə, müsəlman ümmətinin vəhdətinin zərurətini vurğulamaqla məsələni bitmiş hesab etmək olmaz. Tarixi təcrübədən çıxış edərək, vəhdətə mane olan amillər araşdırılmalı, onlardan nəticə çıxarılmalıdır. Lakin bundan məqsəd insanlarda ümidsizlik və mənfi əhval-ruhiyyə yaratmaq deyil, tarixin dərslərindən ibrət götürməyə çağırmaqdır. Biz öz məqsədimizə çatmaq yolunda qarşılaşdığımız və ya qarşılaşa biləcəyimiz çətinlikləri mükəmməl şəkildə öyrənməliyik ki, onlarla mübarizəni də uğurla həyata keçirə bilək.***



1400 illik tarixi təcrübəni nəzərə alaraq, vəhdət hərəkatında daha ciddi uğurlar əldə etmək üçün bunları təklif etmək istərdik:

1. Əvvəla, vəhdət prosesində cəmiyyətin bütün təbəqələri fəal iştirak etməlidirlər. Bu məsələni yalnız alimlərin öhdəsinə buraxmaq və yalnız onları məsuliyyətli bilmək düzgün deyil. Əlbəttə, alimlər vəhdət və yaxınlaşma prosesinin əsas iştirakçısı və hərəkətverici qüvvəsi olmalıdırlar. Lakin cəmiyyət də onların cəhdlərini düzgün qiymətləndirməli, tövsiyələrini eşitməli, fəaliyyətlərini boş-boşuna tənqid hədəfinə tutmamalıdır. Həmçinin, müsəlman dövlət adamları və siyasi xadimləri də problemin ciddiliyini dərk etməli, vəhdət hərəkatına öz köməkliklərini əsirgəməməlidirlər. Dövlət başçılarının siyasi nüfuzu bu istiqamətdə xeyli müsbət rol oynaya bilər.

2. Sadə insanlar, sıravi müsəlmanlar məzhəblərarası münasibətlərdə bacardıqları qədər soyuqqanlı və məntiqli davranmalı, qarşı məzhəbin ideya əsaslarına və ardıcıllarına hörmətlə yanaşmağı bacarmalıdırlar. Bu məsələdə lazımsız yerə təəssüb göstərmək heç kimin "nə şiələrin, nə də sünnilərin xeyrinə deyil. Dini elmlərdə dərin savadı olmayan şəxslər, ümumiyyətlə, məzhəb mübahisələrindən uzaq olmalıdırlar. Çünki bir qayda olaraq elm və savad olmadığı məclislərdə nadanlıq və cəhalət hökm sürür. Elmi sübut tapılmayan hallarda təhqir və iftira meydana çıxır.

3. Dini liderlər, ruhani xadimlər məzhəb təəssübünü birdəfəlik kənara atmalıdırlar. Dərk etməlidirlər ki, müsəlman ümmətinin gələcək taleyi xeyli dərəcədə onların şifahi və yazılı bəyanatlarından asılıdır. Hər bir müctəhid və müfti öz ardınca milyonlarla insanın getdiyini anlamalıdır. Hər bir tədqiqatçı alim məzhəb münasibətləri mövzusunda qələmə aldığı hər sətrə və söylədiyi hər kəlməyə məsuliyyətlə yanaşmalıdır. Tarixdən oxuduğumuz kimi bəzən bircə fətva on minlərlə günahsız insanın taleyini həll etmişdir. "Mənim məzhəbimə etiqad etmir deyə, kafirdir" düşüncəsi beyinlərdən silinməlidir. Təkfir fətvaları, emosional çıxışlar unudulmalıdır. Hər bir alim vəhdət hərəkatına öz şəxsi nümunəsi ilə yardım göstərməlidir. "Hörmət hörmət gətirər' prinsipi əsas tutulmalıdır.

4. Hər kəs qarşı məzhəb barədə fikir yürüdərkən son dərəcə məsuliyyətlə davranmalı, yalnız ən etibarlı mənbələrə əsaslanmalı, şübhəli və etimadsız informasiyalara müraciət etməməlidir. Bir çox hallarda keçmiş alimlərin yazdığı kitablar həqiqətə uyğun gəlmir. Çünki bugünkü səviyyədə rabitə və kommunikasiyanın olmadığı əsrlərdə bir ölkə və ya məzhəb barədə iftiralar yaymaq qat-qat asan idi. Kitablardakı bəzi məlumatlar isə həmin dövrlərin reallığını əks etdirir. Onların yazıldığı dövrdən yüzilliklər keçmiş, çox şeylər dəyişmişdir. Hər bir məzhəbin etiqadi və fiqhi görüşləri durmadan təkamül edir, yeni nəzəriyyələr meydana çıxır.

5. Bir məzhəb haqqında fikir yürüdərkən başqa məzhəblərlə onu qarışdırmaq olmaz. Məsələn, məlumdur ki, Türkiyədə xeyli ələvi yaşayır. Təəssüf ki, bəzən Türkiyə mətbuatında və dini ədəbiyyatlarda cəfəriliyi ələviliklə qarışdırırlar. Bəzən sıravi türkiyəlinin təsəvvüründə cəfəri obrazı elə ələvi simasında canlanır. Ona görə də bəzən




şiələrin ünvanına yaraşmayan, əslində isə ələvi əqidəsinə uyğun gələn ittihamlar səsləndirilir.

6. Geniş oxucu kütləsi üçün nəzərdə tutulan əsərlərdə, moizə və xütbələrdə, ümumiyyətlə, dini təbliğatda qarşıdurma yaradan, köhnə düşmənçilikləri qızışdıran faktları ortaya qoymaq məqsədəuyğun deyil. Bu mövzular dini həssaslıq daşıyır, məzhəblərin bir-birinə qarşı münasibətini mənfi məcraya yönəldir. Bir qayda olaraq bu cür mövzuları qabartmamaq, sual verən şəxslərə də bu məsələlərə vaxt itirməkdənsə, daha lazımi və faydalı mövzularla maraqlanmağı məsləhət görmək lazımdır.

7. Daha bir mühüm məsələ dini ədəbiyyatla bağlıdır. Ölkəyə xaricdən gətirilən dini ədəbiyyatı həmişə nəzarət altında saxlamaq lazımdır. Bir neçə il bundan əvvəl Azərbaycana Rusiya, Türkiyə və Səudiyyə Ərəbistanından gətirilmiş bəzi vəhhabi kitablarında məzhəbi zəmində qarşıdurma yarada biləcək məsələlərə rast gəlmək olurdu. Son illərdə dövlət tərəfindən nəzarətin güclənməsi sayəsində bu cür ədəbiyyatların ölkəyə ayaq açmasının qarşısı xeyli dərəcədə alınmışdır. Lakin vəziyyəti tam qənaətbəxş hesab etmək də olmaz.

8. İnsanlara başa salmaq lazımdır ki, məzhəblərin dialoqu heç də onların hamısının və ya bəzilərinin aradan qaldırılması və ya o birilərə tabe etdirilməsi demək deyil. Bəzi cahil şəxslərin təsəvvür etdiyi kimi məzhəbləri ləğv etmək və hamını ümumi bir əqidəyə tabe etdirmək qeyri-mümkün işdir. İstər 4 sünni məzhəbi, istərsə də cəfəri və zeydi məzhəbləri uzun əsrlik formalaşma və inkişaf dövrü keçmişlər. Vəhdət və yaxınlıq hər şeydən öncə qarşılıqlı anlaşma, bir-birini tanıma, bir-birinin əqidəsinə hörmət bəsləmə, ortaq nöqtələrin və işbirliyi istiqamətlərinin müəyyən edilməsi deməkdir.

XX əsrin 50-60-cı illərində əl-Əzhər Universitetinə başçılıq etmiş, həm də məzhəblərarası yaxınlaşma hərəkatının liderlərindən olmuş mərhum Şeyx Mahmud Şəltut xatırlayırdı ki, bəzi sünnilər "Dar əl-təqrib"in (Məzhəblərarası Yaxınlaşma Təşkilatının) onları şiələşdirmək istədiyini sanır, bəzi şiələr isə onları sünniləşdirməyə çalışdığını düşünürdülər. Buna görə də təşkilatın fəaliyyəti qarşısında müxtəlif maneələr yaradırdılar.

Vəhdət hərəkatının görkəmli şəxsiyyətlərindən olmuş Şeyx Məhəmməd Təqi Qumi məzhəblərin müştərək cəhətləri barədə belə deyirdi: "Əgər şiə və sünni məzhəblərinin adının kökünə diqqət yetirsək, görərik ki, elə bütün müsəlmanlar şiədirlər; çünki onların hamısı Peyğəmbərin (s) nəslini sevir. Eyni zamanda, həm də hamı sünnidir. Çünki müsəlmanların hamısı Peyğəmbərin (s) sünnəsini izləməyi lazım bilir. Beləliklə, biz hamımız sünni, şiə, qurani və Məhəmmədiyik (s)".

9. Vəhdət uğrunda çalışmalarda tarixi təcrübə mütləq nəzərə alınmalı, müsbət addımlar diqqətlə araşdırılmalıdır. Bunlardan birini nümunə kimi qeyd edirik:

Mərhum Mirzayi-Şirazinin zamanında İraqın Samirə şəhərində Ramazan bayramının nə vaxt qeyd edilməsi barədə fikir ayrılığı yaranır. Şəhərin şiə əhalisi səmada Ayın görünmədiyini söyləyib ertəsi günün bayram olmadığını bildirirlər. Lakin şəhərin sünni əhalisindən bir neçəsi Ayı gördüyünü iddia edir. Mirzayi-Şirazi bunu eşidən kimi tapşırır ki, Ayı gördüyünü söyləyən əhli-sünnə mənsublarını onun yanına çağırsınlar ki, şahidliklərini eşidib dəyərləndirsin. Çünki şiə fiqhinə əsasən insan özü Ayı görməzsə, iki nəfər ədalətli şəxs Ayı gördüyünə şəhadət versə, həmin adam üçün sübut sayılar. Şahidlər gəlib Mirzənin qarşısında şəhadət verirlər. Alim onların ifadəsini dinləyəndən sonra sabah bayram edilməsinə fətva verir.

10. Vəhdət və məzhəblərarası yaxınlaşma prosesi yuxarıda dediklərimizdən əlavə həm də səbr tələb edir. Bu prosesin çox qısa müddət ərzində tam müsbət nəticələr verəcəyini gözləmək sadəlövhlük olardı. Hər bir maneə addım-addım aradan qaldırılacaq. Çünki beyinlərdəki yanlış təsəvvürləri islah etmək çox çətin və üzücü bir prosesdir. Lakin məqsədyönlü addımlarla bu prosesi xeyli sürətləndirmək mümkündür.

# Müsəlman kimdir?

## MÜSƏLMANIN QURAN AYƏLƏRİNDƏKİ ƏLAMƏT VƏ XÜSUSİYYƏTLƏRİ

### ALLAHA ŞÜKR EDƏNDİR

Ey iman gətirənlər! Sizə verdiyimiz ruzilərin (təmiz və) halalın-dan yeyin! Əgər Allaha ibadət edirsinizsə, (bu nemətlərə görə) Ona şükür edin! (Bəqərə, 172)

### YALNIZ ALLAHA İBADƏT EDƏN, ONDAN YARDIM İSTƏYƏNDİR

Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik! (Fatihə, 5)

O kəslər ki, namaz qılır ,zəkat verir və axirətə möhkəm inanirlar. (Nəml, 3)

### ALLAHIN KİTABINA SARILANDIR

Kitabdan (möhkəm) yapışanlar, (vaxtlı-vaxtında, lazımınca) namaz qılanlar (bilsinlər ki) Biz əməlisalehlərin mükafatını zay etmirik! (Əraf, 170)

### AXİRƏTİ DÜNYAYA TƏRCİH EDƏNDİR

Elə isə, qoy dünyanı verib əvəzində axirəti satın alanlar Allah yolunda vuruşsunlar. Hər kim Allah yolunda vuruşaraq ölərsə və ya (düşmənə) qalib gələrsə, ona böyük mükafat verəcəyik. (Nisa, 74)

### HƏR KƏSƏ YAXŞILIQ EDƏNDİR

Allaha ibadət edin və Ona heç bir şeyi şərik qoşmayın! Ata-anaya qohum-əqrəbaya, yetimlərə, yoxsullara, yaxın və uzaq qonum-qonşuya, yaxın (yoldaş və) dosta, (pulu qurtarıb yolda qalan) müsafirə (yolçulara), əlinizin altında olana (sahib olduğunuz qul və kənizlərə) yaxşılıq edin! Həqiqətən, Allah özünü bəyənənləri, lovğalıq edənləri sevməz! (Nisa, 36)

### ŞEYTANIN VƏSVƏSƏSİNƏ DÜŞMƏYƏNDİR

Allahdan qorxanlara şeytandan bir vəsvəsə toxunduğu zaman (Allahı) xatırlayar və dərhal (gerçəyi) görərlər. (Əraf, 201)

Həqiqətən, iman gətirib yalnız öz Rəbbinə təvəkkül edənlərin üzərində Şeytanın heç bir hökmü yoxdur! (Nəh, 99)

### HƏR ZAMAN ALLAHI XATIRLAYANDIR

O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı xatırlar, göylərin və yerin yaradılması haqqında düşünər (və deyərlər): Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən!.. (Ali-İmran, 191)

### ALLAHDAN BAŞQA HEÇ KƏSDƏN QORXMAYANDIR

O Peyğəmbərlər ki, Allahın hökmlərini (onlara verdiyi risaləti) təbliğ edər, (risaləti tərk etməkdə) Ondan çəkinər və Allahdan başqa heç kəsdən qorxmazlar. Allah özü haqq-hesab çəkməyə kifayətdir. (Əhzab, 39)

### ALLAHDAN BAĞIŞLANMAQ DİLƏYƏNDİR

Ey Rəbbimiz, gücümüz çatmayan şeyi bizə yükləyib daşıtdırma! Bizi əfv edib bağışla, bizə rəhm et! Sən bizim ixtiyar sahibimizsən (mövlamızsan). Kafirlərə qələbə çalmaqda bizə kömək et! (Bəqərə, 286)

### ALLAHA YAXINLAŞMAQ ÜÇÜN VASİTƏ ARAYANDIR

Ey iman gətirənlər! Allahdan qorxun, Ona (Onun rəhmətinə və lütfünə qovuşmaq üçün) vəsilə (yol) ax-tarın. (Allah) yolunda cihad edin ki, nicat tapasınız! (Maidə, 35)

### İNSANLARA YAXŞI İŞLƏR GÖRMƏYİ ƏMR EDİB, PİS İŞLƏR GÖRMƏYİ QADAĞAN EDƏNDİR

O kəslər ki, əgər onları yer üzündə yerləşdirsək (onlara bir yer versək), namaz qılar, zəkat verər, (insanlara) yaxşı işlər görməyi əmr edib, pis işlər görməyi qadağan edərlər. Bütün işlərin sonu (nəticəsi) Allaha aiddir. (Allah qiyamət günü əməllərinə müvafiq olaraq möminlərə mükafat, kafirlərə isə cəza verəcəkdir). (Həcc, 41)

### ALLAH YOLUNDA MALLARI VƏ CANLARI İLƏ VURUŞANDIR

Möminlər yalnız Allaha və Peyğəmbərinə iman gətirən, (iman gətirdikdən) sonra heç bir şəkk-şübhəyə düşməyən, Allah yolunda malları və canları ilə vuruşanlardır! Məhz belələri (imanla-rında) sadiq olanlardır! (Hücərat, 15)